

## Ermənistan Azərbaycanı beynəlxalq təzyiqə məruz qoymağa çalışır

*Ermənistan rəhbərliyinin sülhdən yayınma siyasəti ilə yanaşı, Qarabağdakı separatçıların təxribat xarakterli fəaliyyəti davam edir. Müxtəlif şou-kampaniyaları nəticə vermədiyindən və Azərbaycan tərəfinin prinsipial mövqeyi ilə qarşılaşdıqları üçün fərqli yollara əl atmağa başlayıblar. Belə ki, yenə də xaricdəki havadarlarından mədət umurlar və Azərbaycan əleyhinə qərəzli kampaniyalara başlayıblar.*

Səh.9



# UNİKAL

№29 (2163) 11 avqust 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru



## Monopolistlərin yeni bahalaşma planı

Səh.6

## Məleykə Abbaszadə ilə bağlı müəmma

## DİM sədri gələn aydan təqaüdə yollanacaq?

*Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə yaxın vaxtlarda istefaya göndəriləcək. DİM sədri ilə bağlı qərar sentyabrın ilk ongünlüyündə elan olunacağı gözlənilir. Bu barədə yerli mətbuatda iddia olunub ki, xanım Abbaszadə ilə bağlı mövqe qətiləşib. "Bu il keçirilən buraxılış və birinci blok imtahanlarından sonra şikayətlərin kütləvi xarakter alması bu sektorda dəyişiklikləri qaçılmaz edib. Məleykə Abbaszadənin təxminən 30 il davam edən hakimiyyətinə son qoyulmasının vaxtı çatdığına dair yekdil mövqe var", - deyə yenisabah-a bildirilib. Hətta Məleykə Abbaszadəni kimin əvəzləyəcəyinə dair də iddia irəli sürülüb. Həmin iddiaya görə, DİM sədri postuna Elm və təhsil naziri Emin Əmrullayev...*

Səh.8

## "Vəziyyətə uyğun olaraq anti-terror əməliyyatı istənilən zaman başlaya bilər"



*Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov "Unikal"a müsahibə verib. O, düşmənin növbəti təxribat cəhdlərindən, Azərbaycan Ordusunun nə zaman anti-terror əməliyyatı keçirə biləcəyindən, Ermənistanın Laçın sərhəd buraxılış məntəqəsinə qarşı təxribatları davam etdirməsindən danışıb.*

Səh.4

## "Okamponun hesabatında əsassız ittihamlar var" - Hikmət Hacıyev



*"Vəkil Luis Moreno Okamponun hesabatında əsassız iddialar var". "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Associated Press" agentliyinə müsahibəsində deyib. "Bu hesabat qərəzlidir...*

Səh.4

## İctimai nəzarət cəmiyyətin inkişafına dəstək verir



*Tez-tez hansısa qurumda ictimai şuraya seçkilər keçirildiyi barədə xəbərlər eşidirik. Vətəndaşların dövlət qurumları üzərində ictimai nəzarəti təmin etməsi müsbət addım olsa da, heç də bütün ictimai şuralar öz işini layiqincə görə bilmir. Bəzən bir qeyri hökumət təşkilatının (QHT) bir neçə ictimai şurada təmsil olunduğuna...*

Səh.11

# "Məni səhnəyə çıxmağa məcbur edən insan..." - Brilliant Dadaşova



***"Bu gün qardaşım Akif İslamzadənin ad günüdür. Məni səhnəyə çıxmağa, musiqilərimizi geniş auditoriya qarşısında ifa etməyə məcbur edən insan..."***

"Unikal" olay-a istinadən bildriir ki, bu sözləri Xalq artisti Brilliant Dadaşova "İnstagram" hesabında Azərbaycanın korifey sənətkarı, Prezidentin fərdi təqaüdçüsü Akif İslamzadənin doğum gününü təbrik edərkən yazıb. A.İslamzadə ilə olan "Hər şey gözəldir həyatda" duetini paylaşan sənətçi bildirib ki, ondan həm çəkinib, həm də unatıb: "Bu dünyada çətin sənət yolu kimi, sonsuz məsuliyyət yükünü çiyinlərimə qoyan böyük musiqiçi, böyük şəxsiyyət. Ad gününüz mübarək olsun".

# Hiss yeni layihəsini təqdim etdi



***Hiss ləqəbi ilə şou-biznesdə məşhurlaşan müğənni Röya Məmmədli 8 aydan sonra yeni layihəsini təqdim edib.***

Bizim.Media xəbər verir ki, ifaçı musiqisi və sözləri YAP10-a (Zamiq Əliyev), aranjimanı isə Nihad Məlikova məxsus olan "Mənə pis olma" adlı yeni mahnısını ekranlaşdırıb.

Çəkilişləri Türkiyənin Antalya şəhərində baş tutan klipin rejissorluğu İsmayıl Eren Yalçına həvalə olunub.

Ekran işində Hiss bir-birindən fərqli obrazlar yaradıb. Müğənni bu nəğməsini "Yayın son hiti" adlandırıb. Klip Hissin rəsmi "Youtube" kanalında, mahnı isə bütün rəqəmsal musiqi platformalarında yer alıb.



## "Bilmirəm xoşbəxtlik nədir" - Flora Kərimova

***Xalq artisti Flora Kərimova qızı Zümrüdlə bağlı paylaşım edib.***

Müğənni birlikdə olan videolarını yayımlayaraq, bunları yazıb: "Bilmirəm xoşbəxtlik nədir. Bircə onu bilirəm ki, bugünki həyatımın bircə saniyəsini də ayrı həyata dəyişməzdim".

Qeyd edək ki, F.Kərimovanın bir oğul, bir qız övladı var. İfaçının oğlu ailəlidir və xaricdə yaşayır. Zümrüd isə Londonda yaşayır və bir oğul övladı var.

## "Maybach" alan Azərbaycanlı müğənni: "İndiyə qədər 48 maşınım olub"

***Müğənni Rəvan Qarayev yeni açıqlaması ilə hər kəsi təəccübləndirib.***

"Unikal" baku.ws-ə istinadən bildirir ki, "Həmin Zaur" proqramına qonaql olan ifaçı bu günə qədər 48 avtomobilə sahib olduğunu bildirib.

"Mən 10-cu sinifdə oxuyanda maşınım var idi. Sürücülük vəsiqəm olmadığına görə onu idarə edə bilmirdim. İlk avtomobilim isə "Zaparoji ZAZ" olub. İndiyə qədər isə ümumilikdə 48 maşınım olub".

Xatırladaq ki, müğənni Rəvan Qarayev mətbuatda lüks və bahalı avtomobilləri ilə gündəmə gələn məşhurlardandır. O ötən il özünə qara rəngli "Maybach" markalı maşın alıb. Əvvəllər isə ifaçının ağ rəngli "Range Rover" markalı maşını olub.Yerli mətbuatda yayılan xəbərlərə görə, sənətçi bu günə qədər avtomobilləri ilə iki dəfə ağır qəza keçirib.

## Günel geyimlərini satışa çıxardı - şok qiymətlər

***Türkiyədə yaşayan azərbaycanlı müğənni Günel Zeynalova geyimlərini satışa çıxarıb.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu haqda ifaçı özü məlumat yayıb. O bildirib ki, səhnə geyimlərini onlayn satır.

İfaçı geyimlərinin qiymətini yazaraq, onların 3-5 min lirə arası olduğunu qeyd edib.





# Baş nazirdən notariat hərəkətləri ilə bağlı qərar

***Nazirlər Kabineti "Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında" 23 avqust 2000-ci il tarixli qərarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, "Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formaları"na 1-1 nömrəli forma əlavə edilib.

Bundan başqa, Nazirlər Kabineti "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 11 sentyabr 2000-ci il tarixli qərarında dəyişiklik edib. Ə.Əsədovun imzaladığı müvafiq qərara əsasən, bundan sonra notariat hərəkətlərinin aparılması zamanı Konstitusiya, "Notariat haqqında" qanun, digər qanunları, habelə "Notariat haqqında" qanuna zidd olmayan Nazirlər Kabineti və Ədliyyə Nazirliyi ilə yanaşı ölkə Prezidentinin də öz səlahiyyətləri daxilində qəbul etdikləri normativ aktlar və Təlimat rəhbər tutulacaq.

Bundan başqa, ərizə yazılı formada bilavasitə notariusun yanında imzalanaraq veriləcək, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanacaq, həmçinin şəxsi gerbli möhürlə təsdiq ediləcək və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmayacaq.

# TƏBİB-ə yeni səlahiyyət verildi

***Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydasına dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə yeni səlahiyyət verilib. Əlilliyi olan şəxslər "Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı"nda nəzərdə tutulmuş dərman preparatları Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə birgə müəyyən etdikləri siyahıda nəzərdə tutulan dövlət müalicə-profilaktika müəssisələrində təşkil edilmiş aptek məntəqələri vasitəsilə təmin olunacaqlar.

Əvvəl bu səlahiyyət İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində idi.

# "BHS Fiber" şirkəti cərimələndi

***İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) ilk dəfə olaraq provayderi cərimə edib.***

"Unikal" xəbər verir ki, bu barədə İKT üzrə ekspert Osman Gündüz məlumat paylaşıb. O bildirib ki, Xırdalanda fəaliyyət göstərən "BHS Fiber" şirkəti uçota durmadığı üçün cərimələnib.

"Yəni, bu provayderin adı, ünvanı , əlaqələri və s. heç kimə məlum olmayıb. Xəbərdarlıq olsa da, uçota düşməyib. Mövcud qanunvericilikdə isə bununla bağlı 1500 manatadək cərimə nəzərdə tutulub ki, RİNN-nin yeni Agentliyi ilk dəfə bu səlahiyyətindən istifadə edib".

Ekspert xatırladıb ki, ölkədə 200-dək internet servis provayder olsa da, hələlik İKTA saytında 138 provayderin uçota düşdüyü görsənir.

# Məleykə Abbaszadə ilə bağlı müəmma

## DİM sədri gələn aydan təqaüdə yollanacaq?



***Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə yaxın vaxtlarda istefaya göndəriləcək. DİM sədri ilə bağlı qərar sentyabrın ilk ongünlüyündə elan olunacağı gözlənilir. Bu barədə yerli mətbuatda iddia olunub ki, xanım Abbaszadə ilə bağlı mövqe qətiləşib.***

"Bu il keçirilən buraxılış və birinci blok imtahanlarından sonra şikayətlərin kütləvi xarakter alması bu sektorda dəyişiklikləri qaçılmaz edib. Məleykə Abbaszadənin təxminən 30 il davam edən hakimiyyətinə son qoyulmasının vaxtı çatdığına dair yekdil mövqe var", - deyə yenisabah-a bildirilib.

Hətta Məleykə Abbaszadəni kimin əvəzləyəcəyinə dair də iddia irəli sürülüb. Həmin iddiaya görə, DİM sədri postuna Elm və təhsil naziri Emin Əmrullayev gətiriləcək. "Məktəblərdəki neqativ halların ictimailəşməsindən sonra sürətlə nüfuzdan düşən gənc nazirin bu təyinata özünün xilası kimi baxdığı deyilir. Əmrullayevin karyerası ilə bağlı qərarın yeni tədris ili başlayana kimi veriləcəyi gözlənilir" deyə vurğulanıb.

Xatırladaq ki, M.Abbasadənin vəzifəsindən azad olunacağı, təqaüdə göndəriləcəyi barədə bir müddət əvvəl "Unikal" qəzeti olaraq biz də yazmışdıq. Qeyd etmişdik ki, bu il 70 yaşı tamam olan Məleykə xanım 2000-ci ildə Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri təyin edilib. 2016-cı ildən isə o, TQDK-nin əvəzində yaradılan Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədridir.

Məleykə xanımın 1994-2000-ci illərdə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədr müavini olduğunu da xatırladaq.

Bir sözlə, xanım Abbaszadə 30 ilə yaxındır sözügedən qurumda yüksək postlarda çalışıb.

Həmin müddətdə Məleykə xanımın fəaliyyəti ictimaiyyət tərəfindən, əsasən, təqdirlə qarşılanıb.

Lakin son 2-3 ildə DİM-lə bağlı tənqidlərin, iradların artması bir reallıqdır. Elə ona görə də M.Abbaszadənin görəvindən ayrılma vaxtını düşünənlərin sayı çoxalıb.

Bu yaxınlarda Milli Məclisin deputatı, təhsil üzrə ekspert Etibar Əliyev də bildirib ki, hazırda DİM-də ictimai nəzarət çox zəifdir, hətta demək olar ki, həyata keçirilmir. Mütəxəssis əlavə edib ki, bu da bəzi qüsurlar barədə fikirlər səsləndirməyə əsaslar verir. Sitat: "Digər qurumlarda cənab Prezidentin imzaladığı "İctimai iştirakçılıq haqqında" qanuna müvafiq olaraq, İctimai Nəzarət Şuraları çalışır.Lakin DİM-də bu, çox zəifdir və müəyyən şübhələr yaradır".

Yeri gəlmişkən, bir neçə ay öncə "Ali təhsil haqqında" qanun layihəsi ilə bağlı keçirilən ictimai dinləmələrdə elm və təhsil naziri Emin Əmrullayev, onun müavinləri iştirak və çıxış etsə də, Məleykə xanım gözə dəyməmişdi. Bu da ictimaiyyət tərəfindən maraqla qarşılanmış, müxtəlif fikirlərin ortaya çıxmasına səbəb olmuşdu. Söhbət, ilk növbədə, DİM sədrinin əvəzlənməsindən gedirdi.

Hətta elm və təhsil nazirinin qəbulla bağlı problemlər üzərində dayanması da bu versiyanı qüvvətləndirən məqam kimi qiymətləndirilmişdi. Belə ki, E.Əmrullayev demişdi: "Abituriyent bir neçə ixtisası yazır, birinə düşmürsə, o birinə düşür. Nəticədə abituriyent biologiya, kimya ixtisaslarını istəyirsə, axırda gedib başqa bir ixtisasa düşür. 95 faiz halda abituriyent belə davranır. Mahiyyət etibarilə həkim olmaq istəməyən insanlar həkim olur".

Hətta nazirin bu sözlərinin ardınca DİM-lə Elm və Təhsil Nazirliyi arasında hələ Misir Mərdanov dövründən mövcud olduğu deyilən "soyuq müharibə"nin yenidən alovlandığı barədə mülahizələr də ortaya çıxmışdı.

Bir sözlə, son vaxtlar orta-da 70 yaşlı Məleykə Abbaszadənin artıq öz postu ilə vidalaşıb təqaüdə yollanmaq ehtimalını gücləndirən xeyli faktor olduğu qənaətinə gəlmək mümkündür. Həmin qərarın isə ali məktəblərə qəbul prosesinin tam yekunlaşmasının ardından, yeni tədris ilinin başlaması ilə birgə veriləcəyi də real görünür.

O ki, qaldı həmin posta məhz hazırkı elm və təhsil nazirinin təyin edilməsinə, bu iddia ağlabatan deyil. Əmrullayevin nazir postunda qalaraq hədəflədiyi islahatları başa çatdırmağa üstünlük vermə ehtimalı yüksəkdir. Lakin yeni DİM sədrinin Elm və Təhsil Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq şəraitində işləməyə üstünlük verəcək şəxs olacağını əminliklə söyləyə bilərik. Hər halda bu iki qurum arasında illərdən bəridir hökm sürdüyü deyilən soyuqluğu aradan qaldırmaq təhsil kimi strateji sahə üçün həddsiz dərəcədə vacibdir.

***Toğrul Əliyev***

# Ermənistan Azərbaycanı beynəlxalq təzyiqə məruz qoymağa çalışır

***Ermənistan rəhbərliyinin sülhdən yayınma siyasəti ilə yanaşı, Qarabağdakı separatçıların təxribat xarakterli fəaliyyəti davam edir. Müxtəlif şou-kampaniyaları nəticə vermədiyindən və Azərbaycan tərəfinin prinsipial mövqeyi ilə qarşılaşdıqları üçün fərqli yollara əl atmağa başlayıblar. Belə ki, yenə də xaricdəki havadarlarından mədət umurlar və Azərbaycan əleyhinə qərəzli kampaniyalara başlayıblar. Qarabağ separatçılarının lideri Araik Arutyunyan Ermənistandan, Rusiyadan və Qərbdən əlini üzdükdən sonra erməni lobbisinə müraciət edib.***



Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu hesab edir ki, "Bizi xilas edin" səpkili açıqlama yayımlayan Arutyunyanın erməni lobbisindən tələbi odur ki, yaşadıqları ölkələrin hökumətlərinin Azərbaycana təzyiq etmələrinə, o cümlədən Laçın yolunun "açılmasına" nail olsunlar: "Erməni lobbisi bu müraciət olmadan da Azərbaycana qarşı fəaliyyətinə ara verməyib. Erməni lobbisi ilə sıx əlaqəli olan amerikalı konqresmen Adam Şiff "Facebook" səhifəsində "Ağ Evin Arsaxın müstəqlliyinin tanınmasına" yönəlik çağırış edib. Adam Şiff birinci dəfə deyil ki, sərsəm bəyanatlar verir. Ancaq ermənipərəst konqresmenlər bəyanatlarla kifayətlənməyərək Ermənistana təmsilçilərini də göndəriblər. ABŞ Senatının Beynəlxalq Əlaqələr Komitəsinin aparat işçiləri Sara Arkin və Damian Merfi Qərbi Zəngəzurda görüşlər keçiriblər. Bu təxribatın başında da senator Robert Menendes dayanır. Bizim üçün önəmli olan ABŞ-ın dövlət strukturlarının mövqeyidir. Bu strukturlar Azərbaycanla strateji tərəfdaşlığı dəstəkləyirlər. Buna baxmayaraq, ermənipərəst konqresmenlər suyu bulandırmağa çalışacaqlar. Görəsən, nə zamansa heç olmazsa bir konqresmenin və ya senatorun Azərbaycanın ərazi bütövlüyünün təminatının vacibliyi ilə bağlı açıqlamasını eşidəcəyik? Bu sual həm də ABŞ-dakı səfirliyimizə və bu ölkədəki diaspor təmsilçilərimizə aiddir".

Politoloq onu da vurğulayıb ki, Erməni lobbisi son günlər daha da Azərbaycana qarşı kampaniyanı genişləndirib: "Son günlər Qərb ölkələrində Azərbaycan əleyhinə açıqlama və məqalələrin sayı artıb. Buna fikir verməmək də olar, Qarabağın tamamını nəzarətə götürmək məsələsində hələ ki, bizə əngəl yaradacaq ciddi amil yoxdur. Buna baxmayaraq, Ermənistan hökuməti , Qarabağ separatçıları, erməni lobbisi ilə həmfikir olanların öz ölkələrində Azərbaycan əleyhinə ictimai rəy formalaşdırmasına da seyrçi qalmaq mümkün deyil. Prezidentin köməkçisi Hikmət Hacıyev az qala hər gün Qərbdə kiminsə açıqlamasına və məqaləsinə cavab vermək məcburiyyətindədir. Ancaq bu yalnız Hikmət Hacıyevin işi olmamalıdır, səfirlərimiz indiki həssas dövrdə fəallıqlarını artırmalıdırlar, çalışdıqları ölkələrin ictimai rəyinə təsir edən yazarlarıyla görüşməli, fikir mübadiləsi aparmalı və haqlı mövqeyimizi onlara izah etməlidirlər. Bundan da nəticə çıxmayacaqsa, özləri məqalə hazırlayıb müxtəlif nəşrlərdə və saytlarda yayımlanmasına nail olmalıdırlar".

Politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, Ermənistan tərəfindən Humanitar Yük şousunun davam etməsi danışıqlar prosesinə mane olur. Onun qənaətincə, Rusiya prosesi pozur və nəticədə iki ölkə arasında mümkün sülh danışıqları təxirə salınır: "Qeyd edim ki, Rusiya prezidenti Vladimir Putinin Türkiyə səfərində Ermənistan Azərbaycan məsələsi və Qarabağda Rusiyanın fəaliyyəti müzakirə ediləcək. Türkiyə bu məsələdə Rusiyaya güzəştə getməyəcək. Rusiya reinteqrasiya prosesinə mane olur. Silahlı erməni birləşmələrinin çıxarılmasına imkan vermir. Bu da Ankaranı narahat edir. Rusiya və Türkiyə arasında Qarabağda silahlı erməni birləşmələrinin çıxarılması və reinteqrasiya məsələləri müzakirə ediləcək. Düşünürəm ki, Rusiya güzəştə getməyəcək. Nəticədə Türkiyə və Azərbaycan təzyiq siyasətinə keçəcək. Növbəti mərhələdə Azərbaycanın anti-terror əməliyyatlarının keçirilməsi gündəliyə gələ bilər".

M.Əsədullazadə onu da qeyd edib ki, Ermənistanda revanşistlər Laçın yolu ilə bağlı meydanlara çıxıb, hökumətə qarşı etiraz edib, ultimatum verirlər: "Erməni cəmiyyəti daim xaricdən idarə olunub və Azərbaycana qarşı istifadə edilib. Hazırda da eyni proses davam etdirilir. Məhz, Ermənistanın Baş naziri Nikol Paşinyan nə qədər dəyişkən siyasətçi olsa da, müəyyən praqmatik fikirləri var, sülh müqaviləsinin bağlanmasına gedə bilər. Amma, problem daxildə çox ciddidir. Erməni cəmiyyəti fərqlidir və hökumətin təsir rıçaqları bir çox məsələlərdə təsirli deyil. Çünki, Kilsə, diaspora cəmiyyətin əsas aparıcı qüvvəsinə dəstək verib. Hazırda etirazlar məhz Kilsə və diaspora tərəfindən idarə olunur. N. Paşinyanın siyasi müxalifətdən kənar qruplarla mübarizə aparması isə, onun fiziki məhvinə gətirə bilər".

***M.İbrahimli***



# Vəliyev-Günaydın danışıqları

## Bakı-Ankara müttəfiqliyində yeni kəşfiyyat hazırlığı

***Avqustun 8-də Azərbaycan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə Baş Qərargahının Kəşfiyyat rəisi general-polkovnik İsmayıl Günaydının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Bu barədə fikirlərini bölüşən siyasi şərhçi Aqçin Kərimov deyib deki, görüş Türkiyənin Yaxın Şərqdə, Cənubi Qafqazda rəqabətdə olduğu tərəflərə qarşı mübarizəsinin fonunda nəzərə çarpır. Onun fikrincə, Vəliyevlə Günaydının müzakirələrinin gizliliyini açmaq üçün bir neçə xüsusiyyətə nəzər salmaq ehtiyacı yaranır: "Öncəliklə qeyd edim ki, müzakirələr hər iki dövlət arasında strateji müttəfiqlikdən irəli gələn çağırışların kəşfiyyat müstəvisindəki əməkdaşlığı dərinləşdirmək baxımından önəmlidir. Türkiyə Baş Qərargahının Kəşfiyyat İdarəsinin funksiyalarına baxdıqda görüş barədə daha aydın təəssürat yarana bilər. Türkiyə Baş Qərargahının Kəşfiyyat İdarəsi ölkə daxilində və xaricində kəşfiyyat məlumatlarının toplanması fəaliyyətini həyata keçirən orqandır. Yüksək konfidensiallıq əsasında əməliyyatlar keçirən Baş Qərargahın Kəşfiyyat İdarəsi xaricdəki və daxildəki əməliyyatlarını terrorizmlə mübarizə üzrə strategiyaya söykəyir.

Deməli, Azərbaycanla Türkiyə arasında kəşfiyyat, əks-kəşfiyyat, təhlükəsizlik missiyalarının planlaşdırılması və qarşıya qoyulan tapşırıqların birlikdə icrası məsələsində yeni mərhələnin başlanması müzakirə edilir. Bu, mümkün yeni təhlükəli tendensiyaların xarakteri və mahiyyətinə adekvat tədbirlər planının hazırlanması məntiqilə izah edilə bilər".

Şərhçi hesab edir ki, Vəliyevlə Günaydının portfelində bu məsələ xüsusi qabarıq görünür ki, Azərbaycanla Türkiyə Ankaranın kəşfiyyat və əks-kəşfiyyat əməliyyatlarının yarada biləcəyi regional təsirləri ölçürlər. Xüsusilə, Türkiyənin Suriyada, İraqdakı üzdə olan və arxa plandakı fəaliyyətləri Yaxın Şərq regionundakı Ankaranın profilinə müsbət təsir edir və bununla əlaqəli proseslər Cənubi Qafqaza da sıçrayır.

**Türkiyənin Yaxın Şərq üzrə prioritetlərinin:**

1. Qərb üçün məqbul variantları olsa da, nəticədə Ankara ilə rəqabətin kökü qalır;
2. Rusiya ilə üst-üstə düşən prioritetlər gözə görünsə də, arxa planda Ankara-Moskva xəttində gərginliklər az deyil;
3. İranla toqquşan cəhətləri birləşən tərəflərdən çoxdur.

Türkiyənin Yaxın Şərqdəki aktivlik dozası onun Cənubi Qafqaz siyasətinə də xeyli şəkildə sirayət edir, məntiqlə, Ankaranın rəqibləri onun regiondakı potensialını zəiflətmək üçün fəallaşa bilərlər. Burada hərənin öz kartı var, Türkiyə isə Azərbaycanla strateji müttəfiqliyin işığında Bakı-Ankara təhlükəsizlik zolağında qalxan qaldırır.

Vəliyevlə Günaydının danışıqları perspektiv üçün təhdidlərin qarşısının alınmasında kəşfiyyat məlumatlarının mübadiləsini intensivləşdirə bilər.

İkinci bir məqam Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması cəhdlərinin Cənubi Qafqazda gərginliyi artırması, mümkün hərbi eskalasiya yarada bilmək həyəcanı ilə bağlıdır.

Azərbaycan Ermənistanla baş verə biləcək hərbi toqquşma ssenarisini diqqətlə hazırlayır.

Buraya əməliyyat planlamasından tutmuş, Ermənistanın təxribatlarına cavab olaraq atılacaq addımlar, beynəlxalq və regional oyunçuların həmlələrinə qarşı geniş əhatə daxildir.

# Prezident Rusiyanın yeni səfirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirildi, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat, humanitar sahələrdə, regional təhlükəsizliklə bağlı məsələlərdə fəal qarşılıqlı fəaliyyətin həyata keçirildiyi qeyd olundu.

Həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın olduğu vurğulandı, dövlət başçıları arasında təmasların əlaqələrimizin genişlənməsinə verdiyi töhfə bildirildi, ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinin hazırki vəziyyəti barədə danışıldı.

Energetika və nəqliyyat sahələrində həyata keçirilən layihələrin, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin regional inkişaf üçün əhəmiyyəti vurğulandı.

# ATƏT sədri Azərbaycan və Ermənistan XİN rəhbərləri ilə müzakirə apardı




***Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani bu gün Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan XİN rəhbəri Ararat Mirzoyanla telefon danışığı aparıb.***

"Unikal" xəbər verir ki, bu barədə Buyar Osmani Tvitterdə paylaşım edib.

ATƏT sədri Azərbaycan və Ermənistan XİN rəhbərləri ilə Laçın yolundakı vəziyyəti müzakirə edib.

# Zakir Həsənov türkiyəli həmkarına başsağlığı verdi



***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülerə başsağlığı ünvanlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Başsağlığında deyilir: "Bölgədəki terror təhlükəsini zərərsizləşdirmək, ərazidə yaşayan mülki insanları terror hücumlarından və təhdidlərindən qorumaq məqsədilə qardaş Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Pençe-Kilit" antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçularının şəhid olması və yaralanması xəbərləri məni çox kədərləndirir.

Sizin acınız bizim də acımızdır.

Şəhid hərbi qulluqçulara rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Dövlət qulluqçuları ilə bağlı vacib qərar

***1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının ümumi şərtlərinə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərara əsasən, 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının ümumi şərtlərinə aşağıdakı yarımbəndlər əlavə edilib:



**Aparat rəhbəri**

**Təhsilə dair tələblər: ali təhsil;**

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 5 il qulluq stajı və yaxud 8 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

**Aparat rəhbərinin müavini**

**Təhsilə dair tələblər: ali təhsil;**

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 5 il qulluq stajı və yaxud 7 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

**Dövlət orqanı rəhbərinin müşaviri**

**Təhsilə dair tələblər: müvafiq ali təhsil;**

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 1 il qulluq stajı və ya 3 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri.

# Litva səfirinin Azərbaycanda diplomatik missiyası başa çatıb

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Litvanın Azərbaycandakı səfiri Eqidius Navikası ölkəmizdəki diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.

Bildirilib ki, görüşdə Azərbaycan və Litva arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

C.Bayramov ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan və Litva arasındakı münasibətlərin inkişafı istiqamətində göstərdiyi səylərə görə səfir Eqidius Navikasa təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzu edib.

Nazir son dövrlərdə Azərbaycan və Litva arasında ali və yüksək səviyyəli qarşılıqlı təmasların və səfərlərin artmasının ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini diqqətə çatdırıb. Bu xüsusda, cari ilin may ayında Litva Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 7-ci iclasının keçiril-



məsinin bir sıra sahələr, o cümlədən iqtisadiyyat, enerji təhlükəsizliyi, investisiyalar, bağlantılar və s. sahələr üzrə əməkdaşlığın inkişafı ilə bağlı perspektivlərin müzakirəsi baxımından əhəmiyyəti qeyd olunub.

C.Bayramov post-münaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəf məlumatlandırıb. Ermənistanın beynəlxalq hüquq normalarına, üzərinə götürdüyü öhdəliklərə və verdiyi bəyanatlara zidd olaraq ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə qarşı hərbi-siyasi təxribatlarını, mina təhdidini davam etdirməsinin sülh gündəliyinin irəli aparılmasına ən böyük hədə olduğunu bildirib.

Cari ilin 15 iyun tarixində Laçın sərhəd buraxılış məntəqəsinə qarşı sərhədçimizin yaralanması ilə nəticələnmiş təxribat törədən Ermənistanın ölkəmiz ilə razılaşdırmadan ərazilərimizə "humanitar yük" adı altında konvoylar göndərməsinin beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə hesablanmış növbəti təxribat olduğu diqqətə çatdırılıb. Erməni sakinlər üçün daha çox məhsulların tədarükü üçün tərəfimizdən "Ağdam-Xankəndi" yolundan istifadə ilə bağlı təklifin rədd olunmasının məsələnin humanitar deyil, tamamilə siyasi xarakter daşıdığını göstərdiyi vurğulanıb.

E.Navikas səmimi qəbula görə C.Bayramova təşəkkür edib. Azərbaycanda fəaliyyət göstərdiyi müddətin COVID-19 pandemiyası ilə üst-üstə düşməsinə baxmayaraq, ölkəmizdə çalışdığı dövrdə Azərbaycan və Litva arasında münasibətlərin inkişafında müsbət dinamikanın müşahidə olunmasının məmnunluq doğurduğu bildirilib. Xüsusilə, iki ölkə arasında mövcud siyasi münasibətlərin iqtisadiyyat, energetika, nəqliyyat və bağlantılar sahələrində də əlaqələrin inkişafına təkan verməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# “Environmental Protection First” Koalisiyası Ermənistanın Ətraf Mühit Nazirliyinin bəyanatını pisləyib



***”Biz, bu günlərdə təsis edilmiş “Environmental Protection First” Koalisiyası olaraq, Ermənistan Respublikasının Ətraf Mühit Nazirliyinin Ermənistanın Azərbaycanla sərhəddə yerləşən Vedibasar (Ararat) rayonunun Arazdəyən (Yerasx) ərazisində tikilməkdə olan metallurgiya zavodu ilə bağlı yaydığı cavab bəyanatını qınayırıq”.***

“Unikal” xəbər verir ki, bu barədə koalisiyanın bəyanatında qeyd olunub. ”Bu irimiqyaslı metallurgiya zavodunun tikintisi beynəlxalq səviyyədə qəbul edilmiş standartlara və prinsiplərə, xüsusən də Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə BMT-nin Avropa İqtisadi Komissiyası Konvensiyasının (Espo Konvensiyasının) tələblərinə açıq şəkildə məhəl qoymur. Espo Konvensiyasi ekoloji problemlərin milli sərhədlərdən kənardakı ərazilərə də təsir etdiyini qəbul edir və birdən çox ölkənin təsirləndiyi müəyyən vəziyyətlər üçün beynəlxalq dialoqun vacibliyini vurğulayır. Azərbaycan tərəfi ilə qarşılıqlı razılaşma olmadan sərhəd boyu ərazidə belə bir obyektin tikintisi transsərhəd situasiyalarda ətraf mühitə təsirin qiymətləndirilməsinə yönəlmiş 1991-ci il Espo Konvensiyasının tələblərinin açıq şəkildə pozulması deməkdir. Həm Azərbaycan, həm də Ermənistan bu Konvensiyanı ratifikasiya ediblər. Espo Konvensiyasının təlimatlarına uyğun olaraq, tikinti ilə bağlı Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi sənədi tikinti olan əraziyə yaxın olan Azərbaycan ərazisində yaşayan sakinlərin, eləcə də eko-fəalların rəyi nəzərə alınmaqla, Azərbaycanın müvafiq qurumları tərəfindən araşdırılmalıdır.

Belə bir böyük zavodun tikintisi nəticəsində transsərhəd kontekstdə yaranan ətraf mühitə müdaxilə ilə bağlı Ermənistan Azərbaycanın heç bir qurumu və ya təsirə məruz qalan əhali ilə kommunikasiya qurmayıb. Məşhur ekoloq Garrett Hardin qeyd edirdi ki, bütün su axarlarının çirklənmə təhlükəsi var, ümumi torpaqlardan istifadə hüququnun qanunlara əsasən idarəolunması və aidiyyəti şəxslərin təmkinli şəkildə qarşılıqlı razılaşma əldə etməsi vacibdir. Əks halda, bu, “hamı üçün faciə”yə çevriləcək.

Ermənistan tərəfinin cavabı əməkdaşlığı inkar etmək, Espo Konvensiyasının tələblərini pozmaq və mövzudan yayınmaqdır. Ermənistan tikinti ilə bağlı dialoq və qərar qəbuletmə proseslərində fəal iştirak etmək, zərərin həcmini ölçmək və potensial həllərin müəyyən edilməsi üçün beynəlxalq QHT-lər və region ölkələrinin vətəndaş cəmiyyəti nümayəndələrini (Azərbaycan və Gürcüstandan olan QHT-lər də daxil olmaqla) cəlb etməli, eləcə də texniki ekspertiza, monitorinq və qiymətləndirmə aparmaq üçün əlverişli mühit yaratmalıdır.

Espo Konvensiyasının 3.1 və 3.7-ci maddələrinə, eləcə də həmin Konvensiyanın I Əlavəsinin 4-cü bəndinə istinad edərək, Azərbaycan tərəfi rəsmi olaraq Ermənistandan Arazdəyəndə (Yerasx) həyata keçirilən fəaliyyətlərdən irəli gələn mənfi transsərhəd təsirlərə dair hərtərəfli məlumat tələb edib. Bu məlumatın verilməsi Ermənistanın beynəlxalq öhdəliyidir. Azərbaycan tərəfinin guya Arazdəyəni (Yerasxı) atəşə tutması ilə bağlı Ermənistanın cavabında irəli sürülən əsassız ittihamlar tamamilə yalandır və qəbuledilməzdir. Biz ekoloji fəlakətlə bağlı dərin narahatlıqlarımızı dilə gətirsək də, Ermənistan bunu bilərəkdən siyasiləşdirir və mövzudan yayınmağa çalışır. Bu cür təxribatlar ekoloji pozuntular üçün kamuflyaj ola bilməz.

Ermənistanın rəsmi qurumları məlumatları təqdim etmək əvəzinə, media vasitəsilə mümkün təsirlərin minimal olacağını ilə bağlı inandırmağa çalışırlar. Təəssüf ki, bu mövqe Espo Konvensiyasının tələblərinə ziddir.

Tərəfimizdən aparılan ilkin təhlil onu göstərir ki, Ermənistanda fəaliyyət göstərən mədən sənayesi müəssisələrinin torpaq, havanın keyfiyyəti, səth və yeraltı suların vəziyyəti, eləcə də flora və fauna ilə bağlı Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sənədləri ictimaiyyət üçün tam şəkildə açıqlanmır.

Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün (EITI) 2022-ci ildə Ermənistanla bağlı hesabatda da vurğulanır ki, ölkədəki bəzi mədən şirkətləri 2020-2021-ci illər üçün Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sənədlərini hazırlamayıblar və ictimaiyyətə təqdim etməyiblər.

Qeyd olunan halları və Ermənistanın mədən sənayesinin illər ərzində Azərbaycanın ekoloji mühitinə zərərli təsirindən yaranan ictimai narazılığı nəzərə alaraq, Koalisiyamız Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədlərinin tam açıqlanmasını gözləyir. ƏMTQ hesabatlarının tam mətnləri ictimaiyyətə açıqlanmalıdır. Ermənistan bu mühüm ekoloji qeydləri gizlətməməli və bu barədə hüquqi öhdəliyini unutmamalıdır.

Biz Ermənistanın mədən sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətləri Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədlərini öz rəsmi internet səhifələrində dərhal dərc etməyə və beləliklə, bu məlumatları ictimaiyyətə açıqlamağa çağırırıq. Məlumat almaq hüququ demokratiyanın və qanunun aliliyinin vacib elementidir. Məlumatı gizlətmək insan hüquqlarının pozulmasıdır.

Ermənistandan təsirə məruz qalan icmaların bu zavodların fəaliyyəti haqqında məlumat əldə etməsinə və qərarların qəbulu proseslərində iştirakına imkan yaratmaq, eləcə də ətraf mühitə dəyən zərərin aradan qaldırılması ilə bağlı həll yollarına dair zəmanət verməklə, öhdəliklərini yerinə yetirməsi tələb olunur.

Birləşmiş Millətlər Təşkilatının “Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri” hasilat sənayesi də daxil olmaqla, biznesdə məsuliyyətli davranışı təşviq etmək üçün mühüm çərçivə təmin edir. Bu prinsiplər şirkətlərin insan hüquqlarına riayət etmələri, ətraf mühitə mənfi təsirlərin qarşısının alınması və təsirə məruz qalmış icmalarla şəffaf, inklüziv şəkildə əlaqə saxlamaları zərurətini vurğulayır. Biz Arazdəyəndə (Yerasx) metallurgiya zavodunun tikintisi ilə məşğul olan bütün maraqlı tərəfləri öz fəaliyyətlərini bu prinsiplərə uyğunlaşdırmağa çağırırıq”, - bəyanatda qeyd olunub.




# Azərbaycanda inflyasiya nə qədərdir? - RƏSMİ

***2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanda inflyasiya 2022-ci ilin yanvar-iyul aylarına nisbətən 112,2 faiz təşkil edib. Bu isə ötən aya nisbətən 0,5% azdır.***

”Unikal” bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

İstehlak qiymətləri indeksi ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 114,3 faiz, qeyri-ərzaq məhsulları üzrə 111,0 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,4 faiz təşkil etmişdir. 2023-cü ilin iyul ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,3 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,4 faiz təşkil edib.

2023-cü ilin iyul ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 98,5 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,7 faiz təşkil edib.

Cari ilin iyul ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox ucuzlaşma çörəyin, unun, qarabaşaq yarmasının, vaflinin, təzə balığın, yoqurtun, südün, pendirin, yumurtanın, süfrə marqarininin, kərə, günəbaxan və qarğıdalı yağlarının, qarpızın, yemişin, üzümün, bananın, armudun, gavalının, bibərin, badımsanın, xiyarın, pomidorun, göy lobyanın, soğanın, kartofun, konfetlərin, çayın, mineral suların, arağın, bahalaşma isə əsasən qoyun ətinin, zeytun yağının, gilasın, əriyin, kələmin, sarımsağın, çuğundurun, yerkökünün, şəkər tozunun qiymətlərində müşahidə olunub.

Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. 2023-cü ilin iyul ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,0 faiz, əvvəlki ilin iyul ayına nisbətən 108,8 faiz təşkil edib. 2023-cü ilin iyul ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 100,1 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,6 faiz təşkil edib. İyul ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma, taksi nəqliyyatı ilə şəhərdaxili sərnişindaşıma xidmətlərinin və respublikadan kənara istirahət turlarının qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# "Bu qayda 100 min dollar çıxarmaq istəyənlərə mane ola bilməz" - Ekspert

***”Əbəs yerə plastik kartdan xarici ölkədə pul çıxaran zaman ayda 10 min dollarlıq limitin qoyulması belə rezonans yaradıb”.***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı ekspert Eldəniz Əmirov deyib. O bildirib ki, bu qayda 30 min, 40 min və ya 100 min dollar çıxarmaq istəyənlərə mane ola bilməz.

”Çünki bu məbləği 5-10 nəfər və ya 5-10 kart vasitəsilə xaricə daşımaq, pulu kartdan çıxarmaq mümkündür. Amma 10 milyon və ya 100 milyon dolları ölkədən kartla çıxarmaq üçün 10 000 nəfər adam və ya 10 000 ədəd kart tapmaq mümkün deyil. Odur ki, bu yeni qərar böyük əhali kütləsini təsirləndirməyəcək. Bu qərar ölkədən külli miqdarda çirkli pul çıxarmağa çalışanları qayğılandıracaq”

İqtisadçı qeyd edib ki, digər dəyişiklik daha önəmlidir: ”Belə ki, fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilərək aylıq limitlə əvəzlənib. Belə ki, ayda 20 min dolladək ödəniş həyata keçirmək mümkün olacaq. Bu isə əvvəlki məhdudiyyətlərlə yaranmış problemlərin həllinə vəsilə olacaq. Çünki, insanlar müxtəlif məq-



sədlər üçün bir dəfəyə ödəməli və həll etməli olduğu işini edə bilmir, günlərlə əziyyət çəkirdi. Odur ki, bunu daha effektiv dəyişiklik hesab etmək olar. O ki qaldı mənzil, maşın və digər əmlak almaq istəyənlərə, bu məsələdə problem yoxdur. Bu proseslər başqa qaydalarla tənzimlənir”.

# Bu inzibati vəzifələrin sayı artırıldı

***“Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları” cədvəlində dəyişiklik edilib.***

“Unikal” xəbər verir ki, bu, Nazirlər Kabinetinin müvafiq qərarında əksini tapıb. Qərara əsasən, AB2 altqrupuna daxil olan vəzifələr artırılıb.

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin aparat rəhbərləri və onların müavinləri vəzifələri bu altqrupa əlavə edilib.

Eyni zamanda, AB4 altqrupuna da yeni - Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin rəhbərlərinin müşavirləri, köməkçiləri vəzifələri əlavə olunub.

## “Okamponun hesabatında əsassız ittihamlar var” - Hikmət Hacıyev



***“Vəkil Luis Moreno Okamponun hesabatında əsassız iddialar var”.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ”Associated Press” agentliyinə müsahibəsində deyib.

“Bu hesabat qərəzlidir, real vəziyyəti təhrif edir və özündə ciddi faktiki, hüquqi səhvləri ehtiva edir”, - o vurğulayıb.

## Dövlət qurumunda yoxlama aparılacaq - Auditor seçildi



***“Dördüncü Sənaye İnqilabinin Təhlili Və Koordinasiya Mərkəzi” Publik Hüquqi Şəxsi beynəlxalq standartlara (IFRS) uyğun tərtib edilmiş maliyyə hesabatlarının beynəlxalq audit standartlarına uyğun auditinin həyata keçirilməsi və müstəqil audit rəyinin verilməsi xidmətlərinin satın alınması ilə bağlı kotirovka sorğusunun nəticəsini açıqlayıb.***

Tenderin qalibi ”Abacus Audit And Consulting” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Qalib şirkətlə 11.900 manat dəyərində müqavilə imzalanıb.

Xidmətlərdə Müəssisənin maliyyə hesabatlarının 31 dekabr 2022-ci tarixə MHBS prinsiplərinə uyğun auditi və müstəqil auditor rəyinin verilməsi, müəssisədə tətbiq edilən mühasibat uçotu qaydalarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS) uyğunluğunun dəyərləndirilməsi və düzəliş etmək lazım gələrsə məlumatlandırılması, şirkətin fəaliyyətinə dair və cari tətbiq olunan uçot siyasətinə uyğun olan yeni MHBS və MUBS üzrə tövsiyyələrin verilməsi və xərclərin vahid büdcə təsnifatına uyğunluğunun yoxlanılması, sifarişçinin vergi və digər dövlət orqanları qarşısındakı hesabat və ödəniş öhdəliklərinin araşdırılması (mənfəət vergisi, ƏDV və mülkəlləfiyətə uyğun digər bəyannamələrin yoxlanılması) və Vergi Məcəlləsinə olan dəyişikliklərlə bağlı tövsiyyələrin verilməsi nəzərdə tutulub.

## FHN tikinti şirkətlərini məhkəməyə verib

***Tikinti şirkətləri məhkəməyə verilib. Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət AgentliyiNİN S.Ə.Dadaşov adına Elmi-Tədqiqat və Layihə-Konstruktor İnşaat Materialları məhkəmədə ”Ziyəddinoglu” Məhdud Məsuliyyətli Cəmiyyətinə (MMC) və ”Akasya Park” MMC-yə qarşı iddia qaldırıb.***

Kommersiya mübahisəsi Bakı Kommersiya Məhkəməsi ndə araşdırılacaq.

Qeyd edək ki, S.Ə.Dadaşov adına Elmi-Tədqiqat və Layihə-Konstruktor İnşaat Materialları İnstitutu inşaat materiallarının istehsalı və tikinti sənayesi sahələrində təhlükəsizliyin təmin edilməsi məqsədilə elmi-tədqiqat, layihə-konstruktor və tecrübə-sınaq işləri aparan, tikintiyə dair normativ-texniki sənədlərin hazırlanmasında iştirak edən təsərrüfat hesablı qurumdur.

”Ziyəddinoglu” MMC və ”Akasya Park” MMC çoxmərtəbəli bina tikintisi ilə məşğul olur.

# “Vəziyyətə uyğun olaraq anti-terror əməliyyatı istənilən zaman başlaya bilər”

### Üzeyir Cəfərov: “Lazım olacağı təqdirdə dərhal qərar veriləcək, çünki Ordumuz tapşırıqları yerinə yetirmək üçün 24 saat hazır vəziyyətdədir”

***Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov ”Unikal”a müsahibə verib. O, düşmənin növbəti təxribat cəhdlərindən, Azərbaycan Ordusunun nə zaman anti-terror əməliyyatı keçirə biləcəyindən, Ermənistanın Laçın sərhəd buraxılış məntəqəsinə qarşı təxribatları davam etdirməsindən danışıb.***

***-Üzeyir bəy, son 10 gündə bölmələrimizin sayıqlığı nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus 2 ədəd ”DJI Mavic 3” kvadrokopteri ələ keçirilib. Ermənistanın sərhəddə kəşfiyyat uçuşları həyata keçirməsi Azərbaycan mövqelərinin koordinatlarını çəkmək və təxribatlar təşkil etmək hazırlıqları kimi başa düşülə bilər. Düşmən bu addımları ilə növbəti təxribata hazırlaşır...***



-Həmin kvadrokopterlər elə də müasir deyillər. Amma ermənilər və onlara havadarlıq edənlər onu bir balaca müasirləşdiriblər ki, müəyyən kəşfiyyat məlumatları əldə etsinlər. Ərazimizlə, şəxsi heyətlə, texnika, relyef və s. ilə bağlı məlumatlar öyrənməyə çalışırlar. Azərbaycanın bu gün imkanları var ki, həmin kvadrokopterləri həm zərərsizləşdirsin, həm də xüsusi texniki vasitələrlə yerə endirsin. Ələ keçirilən kvadrokopterlər son dönəmdə Ermənistana verilib. Bəzi ölkələrdə həmin texnikadan kənd təsərrüfatı, yollara nəzarət və digər məqsədlər üçün istifadə olunur. Bu baxımdan, kvadrokopterlərin bizim üçün elə də təhlükəsi yoxdur. İstənilən halda onu elə hazırlayıblar ki, müəyyən məlumatları onlayn rejimdə alsınlar. Sözsüz ki, kvadrokopterlərin havaya qaldırılması xoş niyyətli deyil. Təxribat törətmək üçün kəşfiyyat məlumatları toplamaq istəkləri də var.

***- Ermənistan tərəfi yaxın vaxtlarda hər hansı bir təxribata cəhd etsələr, Azərbaycan Ordusu tərəfindən anti-terror əməliyyatlarına başlana bilərmi?***

-Vəziyyətə uyğun olaraq anti-terror əməliyyatı istənilən zaman başlaya bilər. Bu əməliyyat üçün məqam yetişməyib. Onlar törətdikləri təxribatların layiqli cavabını alırlar. Onu da bilirik ki, bəlli məqamda qərar veriləcək. Avqustun 10-da Prezident İlham Əliyev Rusiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun etimadnaməsini qəbul edib. Görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinin hazırki vəziyyəti barədə danışılıb.

Bildiyiniz kimi, həmin ərazilərdə Rusiya sülhməramlıları məsuliyyət daşıyırlar. Onlar 2020-ci ildə üzərlərinə götürdükləri öhdəlikləri hələ də yerinə yetirməyiblər. Bu baxımdan, anti-terror əməliyyatı bizim doğal haqqımızdır və istənilən an keçirə bilərik. Nə zaman olacağını isə vəziyyətə uyğun olaraq konkret demək olar. Təxribatların baş verməsinə rəğmən demək istərdim ki, anti-terror əməliyyatı yaxın vaxtlarda da ola bilər. Belə ki, Ermənistan silahlı qüvvələri mövqelərimizi atəşə tuturlar. İstənilən halda Azərbaycan vəziyyətə nəzarət edir. Lazım olacağı təqdirdə dərhal qərar veriləcək, çünki Ordumuz tapşırıqları yerinə yetirmək üçün 24 saat hazır vəziyyətdədir.

***-Bir müddətdir Ermənistan Azərbaycanın öz suveren ərazilərində yaratdığı Laçın sərhəd buraxılış məntəqəsinə qarşı təxribatları davam etdirir. Belə ki, onlar qəsdən vəziyyəti gərginləşdirir, müxtəlif bəhanələrlə bölgədə “blokada” və “humanitar böhran” kimi iddialar yaymaqla sülh prosesinə maneə törədir. Onlar bununla nəyə nail olmaq istəyirlər?***

-Məlum olduğu kimi, Ermənistan ”TIR şousu” düzəldib. Biz onlara hansı təklif lazımdırsa, səsləndirmişik. Araik Arutunyan və digərləri heç nəyə nail ola bilməyəcəklər. Onları sadəcə qızışdırıb ortalığa salıblar. Onun aradan çıxmaq variantı yoxdur. Ermənilər bu təxribatla Azərbaycana təzyiq etmək istəyirlər. Təəssüflər olsun ki, bəzi böyük dövlətlər də bu məsələdə ermənipərəst mövqe tuturlar. Məlumdur ki, Laçın Azərbaycan ərazisidir. Kimin nə ixtiyarı var ki, ərazimizlə bağlı Azərbaycana hansısa şərtləri diktə etsin. Kimdir Arutunyan və digər yanlar? Orada hər hansı bir yol bağlanmayıb. Ermənilər həyatı boyu ağlayaraq özlərinin əzabkeş obrazını yaradıblar. Laçın dəhlizi ilə bağlı lazım olan addımlar atılıb və bundan sonra da atılacaq. 15 gündür yük avtomobillərini ora yığıblar. 15 santimetr Azərbaycan ərazisinə daxil ola biliblər? Azərbaycan buna imkan verməyəcək. Sona qədər də belə olmalıdır. Laçın Azərbaycan ərazisidir və ölkəmizin ərazisinə aid olan məsələlər dövlətimiz tərəfindən tənzimlənir. Bu məsələlər ABŞ, Fransa, Rusiya və digərləri tərəfindən tənzimlənmir. Azərbaycanın Laçın dəhlizi ilə bağlı mövqeyi düzgündür. Düşünürəm ki, sona qədər də o mövqedə qalacağıq.

***-Avqustun 7-də Prezident İlham Əliyev Qazax rayonuna səfəri zamanı “Qazax” Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanış olub. Orada həmçinin, diviziyanın xidməti istifadəsinə verilmiş silah arsenalı, döyüş texnikaları və s. nümayiş etdirilib. Qazaxın Ermənistanla sərhəd olduğunu nəzərə alsaq, bu diviziyanın əhəmiyyətini necə qiymətləndirirsiz?***

-2018-ci ildən etibarən Dövlət Sərhəd Xidməti Müdafiə Nazirliyindən sərhəddə bir sıra əraziləri təhvil alıb və qısa müddətdə xeyli iş görülüb. “Qazax” Əlahiddə Sərhəd Diviziyası da o məqsədlə yaradıldı ki, ora strateji istiqamətdir. Oradan Azərbaycanın neft-qaz layihələri keçir, o cümlədən Gürcüstan vasitəsilə Avropaya marşrut var. Həmin diviziyada hərbçilərin xidməti üçün yüksək şərait yaradılıb. Orada nümayiş olunan silah-sursatların bəziləri 44 günlük Vətən müharibəsində DSX tərəfindən istifadə olunub. Onların arasında yeniləri də var idi. Həmin silah-sursatlar elə belə göstərilmir. Hər bir detalın dərin diplomatik, hərbi, siyasi mənası var. Bu, həm Ermənistana, həm də ona havadarlıq edənlərə xatırlatma idi. Ermənilər bir daha ağıllarını başlarına yığmalıdır. Onu da qeyd etmək istərdim ki, “Qazax” Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şərait nə Ermənistanda, nə Gürcüstanda, nə də Rusiyada var. Orada təhlükə yaranacağı halda həm sərhəd pozucularına, həm də özünü o qədər də yaxşı aparmayan Ermənistana qarşı müəyyən addımları atmaq gücündə olan xidmət təşkil olunub.

***Anar Kəlbiyev***

# Dövlət Turizm Agentliyinin milyonlarla manatlıq ilginc tenderləri

## Həftənin replikası: böyük məbləğlər hesabına təşkil edilən tanışlıq turlarına qurumun öz əməkdaşlarının da ehtiyacı var...




***Yola salmaq üzrə olduğumuz həftə məlumat yayıldı ki, Dövlət Turizm Agentliyi xarici ekspertlər və turizm nümayəndələri üçün tanışlıq turlarının təşkili xidmətlərinin satın alınması ilə bağlı tenderə yekun vurub.***

Tenderin qalibi "Baku Holiday" MMC olub. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 768 991,84 AZN-dir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Baku Holiday" MMC 8 noyabr 2013-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 AZN olan şirkətin qanuni təmsilçisi Rzayev Ramil Nurəddin oğludur.

Şirkət barəsində açıq mənbələrdə heç bir məlumat yoxdur.

Dövlət satınalmalarının vahid elektron portalına yerləşdirilən məlumatlara nəzər saldıqda məlum olur ki, şirkət tenderlərdə aktiv iştirak edir. "Baku Holiday" MMC adətən dövlət qurumlarının iri məbləğli tenderlərinin qalibi olur.

Əslində bu xəbərdə bizim diqqətimizi çəkən kifayət qədər böyük məbləğdə bir tenderin qalibi olan şirkət barəsində açıq mənbələrdə heç bir məlumatın olmaması, nə də bu satınalma müsabiqəsinin şəffaflığıdır. Onsuz da ölkədəki tenderlərin çoxunda analoji halların yaşanması adət halına çevrilib.

Bizi maraqlandıran "Baku Holiday"ın təşkil edəcəyi 768 min manatlıq tanışlıq turlarının məqsədidir.

Bunu öyrənmək üçün kiçik araşdırma apardıq. Məlum oldu ki, Tenderin şərtlərinə görə, almandilli ölkələrin, Çinin, İsrailin turizm sənayesi və media nümayəndələrinin Azərbaycana tanıtım səfərlərinin təşkili, həmçinin Quş gözətçiliyi turizm sənayesi və media nümayəndələrinin Azərbaycana tanıtım səfərlərinin təşkili, K.I.T. Qrup ilə əməkdaşlıq çərçivəsində Azərbaycana tanıtım səfərlərinin təşkili və Qazaxıstanın turizm sənayesi nümayəndələrinin Azərbaycana tanıtım səfərlərinin təşkili nəzərdə tutulur.

Yeri gəlmişkən, ötən il də Dövlət Turizm Agentliyi oxşar tender keçirib. Dövlət satınalmalarının vahid internet portalındakı bilgidən aydınlaşır ki, tenderin qalibi "STİ Travel" MMC olub, satınalmanın məbləği isə 1 209,3 min manat təşkil edib. Bu qədər vəsait isə yenə də xarici ekspertlər və turizm nümayəndələri üçün tanışlıq turlarının təşkil olunması üçün nəzərdə tutulub.

Beləliklə, belə məlum olur ki, Dövlət Turizm Agentliyi sözügedən tutların baş tutmasına böyük pullar xərcləyir. Əslində, layihə ilk baxışda təqdirəlayiqdir. Azərbaycanın turizm potensialının təbliği, ölkə hüdudlarından kənarda tanıdılması vacib məqamdır. Bu məqsədlə xərclənən pulların gələcəkdə artıqlaması ilə geri dönəcəyini düşünmək olar. Lakin yalnız DÜŞÜNMƏK OLAR!

Həmin düşüncənin REALLAŞMASI üçün isə öncə Dövlət Turizm Agentliyi rəsmilərinin özləri üçün turlar təşkil edilməlidir - ölkə turizminin real vəziyyətini gözləri ilə görsünlər!

Məsələn, yay mövsümündən etibarən hotel və istirahət mərkəzlərindəki qiymətlərin fantastik bahalaşmasından, artıq yalnız yerli turistlər üçün deyil, xarici turistlər üçün də əlçatmaz olmasından, ən acınacaqlısı isə həmin qiymətlərin göstərilən xidmətin keyfiyyəti ilə tamamən ziddiyyət təşkil etməsindən, bu qədər yazılmasına baxmayaraq adıçəkilən Agentliyin sözügedən istiqamətdə hər hansı real addımı, təsirli tədbirləri gözə dəymir. Ola bilsin, həmin yazılanları oxumurlar, belədə gedib elə yerindəcə bu deyilənləri öz gözləri ilə görmək yaxşı olmazmı?

Bu yaxınlarda Milli Məclisin deputatı Vüqar Bayramov maraqlı məqama toxunmuşdu. O bildirmişdi ki, hələ də Azərbaycana gələn turistlərin böyük əksəriyyəti yalnız Bakıda qalmağa üstünlük verir. Sitat: "Cari ilin birinci yarısında turistlərin 84,2 faizi Bakıda, 4,0 faizi Qusarda, 3,6 faizi Naftalanda, 3,4 faizi Qəbələdə, 2,0 faizi Qubada, 0,4 faizi Gəncədə, 2,4 faizi isə digər şəhər və rayonlardakı hotellərdə gecələyiblər".

Eyni zamanda iqtisadççı olan millət vəkili vurğulamışdı ki, bölgələrimiz xarici turist cəlb etməkdə paytaxt hotellərinə yenə də uduzurlar. Paytaxtın infrastrukturunu nəzərə aldıqda bu normal qarşılana bilsə də regional gecələmə sayında fərqin böyük olması diqqətdən kənarda qalmamalıdır. Təəssüf ki, hələ də bölgələr turizm potensialını tam təqdim edə bilmirlər və bu da xarici turist cəlbində çətinlik yaradır. Digər tərəfdən, əksər rayonlarda turizm xidmətlərinin qiyməti yüksək olaraq qalmaqdadır. Keyfiyyət isə hələ də standartlardan geri qalır.

Bayramov onu da qeyd eləmişdi ki, bölgələrimizin böyük turizm potensialından tam istifadə olunmur. Bu isə o deməkdir ki, bölgələrin turizm imkanlarının re-inteqrasiyası üçün işlər sürətləndirilməlidir: "Bölgələrdə turizm sektoruna daha çox sərmayənin cəlb edilməsi və rəqabətin gücləndirilməsi əsas hədəflərdən olmalıdır. Turizmin enerjidən sonra ölkəyə ən çox valyuta gətirən sektor olduğunu nəzərə alsaq o zaman bu sahənin bölgələrin inkişafına, rayonlarda yeni iş yerlərinin yaradılmasına verəcəyi töhvəni təsəvvür etmək çətin olmaz".

Deputatın bu söylədikləri illərdir media, mütəxəssislər, hətta sadə vətəndaşlar tərəfindən də dilə gətirilir. Ancaq sadalanan problemlər elə problem olaraq da qalır, onların həlli yönündə Dövlət Turizm Agentliyinin fəaliyyəti yetərli deyil.

Ola bilsin, yuxarıda sadalananlardan da Agentlik məlumatsızdır.

***Sənan Mirzə***



# İcmadan təxribatçı ermənilərlə bağlı bəyanat

***Qərbi Azərbaycan İcması bəyanat yayıb. "Unikal" xəbər verir ki, bəyanatda deyilir:***

"Qərbi Azərbaycan İcması son günlər Ermənistanda özlərinə "Səlibçilər" adı vermiş bir qrup caninin İrəvanın mərkəzində "Laçın yolunu güc yolu ilə açmaq üçün silah verin" tələbi ilə aksiya keçirməsini, daha sonra həmin şəxslərin Azərbaycanın məcburi köçkünlərin yenicə qayıtmağa başladığı Laçın rayonu istiqamətində sərhəddə gələrək təxribat törətmək barədə açıqlamalarını pisləyir. Qərbi Azərbaycan İcması hesab edir ki, keçən il revanşist Ermənistan müxalifətinin minlərlə insanın iştirakı ilə "Türksüz Ermənistan" şüarı ilə İrəvanda keçirdiyi irqçi aksiyalara beynəlxalq ictimaiyyət tərəfindən lazımi reaksiya verilsəydi, bu gün Ermənistanda bəlkə də belə əməllər təkrarlanmazdı.

Qərbi Azərbaycan İcması Ermənistan cəmiyyətində revanşistlərin keçmiş münaqişəyə dini rəng verməsini yolverilməz hesab edir və beynəlxalq ictimaiyyəti, o cümlədən BMT-ni, onun xüsusi məruzəçilərini, Avropa İttifaqını, onun Ermənistandakı Missiyasını, Laçın sərhədburaxılış məntəqəsi istiqamətinə tez-tez səfər edən ölkələrin səfirlərini, Avropa Şurasını, beynəlxalq qeyri-hökumət təşkilatlarını bu kimi təxribatçı, ksenofob, Azərbaycanafob əməlləri pisləməyə çağırır".

# Xaricdə 10 min dollardan artıq məbləği nağdlaşdıra bilməzsiz - Yeni dəyişiklik

***"Plastik kartlarla xaricə gedənlərin artıq yeni dəyişikliklərə diqqət etməsi lazımdır. Mərkəzi Bank "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"na dəyişiklik edib".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, dünəndən qüvvəyə minmiş yeni qaydalara əsasən, Azərbaycanda emissiya olunmuş ödəniş kartları vasitəsilə rezident fiziki şəxslər tərəfindən ölkə hüdudlarından kənarda təqvim ayı ərzində 10 min dollar ekvivalentinədək məbləğdə pul vəsaitinin nağdlaşdırılması mümkün olacaq:

"Yəni, Azərbaycan bankından alınmış kart sahibi xaricdə olan zaman ay ərzində 10 min dollardan artıq məbləği nağdlaşdıra bilməz. Bu, ölkə hüdudlarından kənarda kartlardan vəsaitin nağdlaşdırılması ilə bağlı aylıq limitlərin tətbiqi anlamına gəlir. O baxımdan, xarici səfərlər zamanı nağd pula ehtiyacı olan vətəndaşlarımızın bu limiti öncədən nəzərə alması vacibdir".

Deputat qeyd edib ki, digər dəyişikliyə əsasən, fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilərək aylıq həddlər ilə əvəzlənib: "Bu hallarda 20 min dollaradək ödəniş həyata keçirmək mümkün olacaq. Eyni zamanda, bu xərc vətəndaşların təkcə özünün deyil, digər şəxslərin də xaricə səfərləri ilə bağlı nəqliyyat və otel (gecələmə) xərclərini ödəmək imkanı kimi nəzərdə tutulub".

***Seymur Əli***

# "Pivəlik arpa emalı zavodu xammala ehtiyacı tam ödəyəcək" - Nazir



***İmişli rayonunda İqtisadiyyat Nazirliyinə məxsus "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "Azərsun Kənd Təsərrüfatı Məhsulları" MMC-nin birgə investisiyası ilə reallaşdırılacaq pivəlik arpa emalı zavodu layihəsi ölkədə qeyri-neft sektorunun inkişafına təkan verəcək layihələrdən biridir.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkə hesabında yazıb.

Nazir qeyd edib ki, investisiya dəyəri 25 milyon manat olan müəssisə Azərbaycanda fəaliyyət göstərən istehsalçıların xammala olan ehtiyacını tam ödəyəcək: "Azərbaycanda rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının stimullaşdırılmasına, onun xammal bazasının yaxşılaşdırılmasına, idxalı əvəz edən yeni istehsal sahələrinin yaradılmasına və ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyi tədbirləri davam edir".

# DİM ixtisas seçimi edəcək abituriyentlərə müraciət etdi

***Dövlət İmtahan Mərkəzi (DİM) II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi edəcək abituriyentlərə müraciət edib.***

Mərkəzdən verilən məlumata görə, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə avqustun 11-də saat 11:00-da Mərkəzin yutub kanalı vasitəsilə II və III ixtisas qrupları üzrə ixtisas seçimi edəcək abituriyentlərə statistik məlumatlar əsasında diqqət yetirməli olduqları məsələlər haqqında məlumat verəcək.

Qeyd edək ki, "Abituriyent" jurnalının 4 saylı buraxılışının, həmçinin II və III qruplar üzrə "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçaların sabah gün ərzində nəşr olunması nəzərdə tutulur. I və IV qruplar üzrə müvafiq kitabçalar isə imtahan nəticələri ilə əlaqədar yaradılmış Apellyasiya komissiyası öz işini yekunlaşdırdıqdan sonra - növbəti həftənin axırına kimi nəşr olunacaq.

Xatırladaq ki, ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi avqustun 16-dan 28-dək internet vasitəsilə aparılacaq.

# "Aztelekom"da əməliyyat keçirilməsi xəbərinə rəsmi reaksiya

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində FETÖ ilə bağlı əməliyyat keçirilməsi haqda məlumat yayılıb.***

"Unikal" xəbər verir ki, Gununsesi.info-nun məlumatına görə, nazirliyin tabeliyində fəaliyyət göstərən telekommunikasiya şirkəti olan "Aztelekom"da keçirilən əməliyyatda iki şəxs saxlanılıb. İddiaya görə, həmin şəxslərə qarşı elan edilən rəsmi ittihamın nədən ibarət olması bilinməsə də, onların FETÖ-çü olduğu ehtimal edilir.

Xəbərə "Aztelekom" MMC reaksiya verib: "Müxtəlif kütləvi informasiya vasitələrində hüquq mühafizə orqanları tərəfindən "Aztelekom" MMC-də iki şəxsin həbs edilməsi barədə yayılan məlumatla bağlı bildirmək istəyirik ki, "Aztelekom" MMC-yə hüquq mühafizə orqanları tərəfindən mövzu ilə əlaqədar hər hansı sorğu, məlumat və s. daxil olmayıb.

Bu kimi təsdiqini tapmayan məlumatların hansı səbəblərdən kütləvi informasiya vasitələrinə sızdırılması "Aztelekom" tərəfindən araşdırılır. Media nümayəndələrini rəsmi təsdiqini tapmayan məlumatları paylaşmamağa çağırırıq".

# Ödəniş terminallarına dair tələblər müəyyənləşəcək

***Elektron pul təşkilatları tərəfindən hüquqi şəxslərə, xarici hüquqi şəxslərin yerli filiallarına və fərdi sahibkarlara açılmış ödəniş hesabları haqqında məlumatın təqdimedilmə forması və müddəti müəyyənləşdiriləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Ödəniş xidmətləri haqqında" qanunda əksini tapıb.

Fərmana əsasən, İqtisadiyyat Nazirliyi elektron pul təşkilatları tərəfindən hüquqi şəxslərə, xarici hüquqi şəxslərin yerli filiallarına və fərdi sahibkarlara açılmış ödəniş hesabları haqqında məlumatın təqdimedilmə formasını və müddətini üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

# Monopolistlərin yeni bahalaşma planı

## Azərbaycandakı ikirəqəmli inflyasiyanın səbəbini həm də inhisarçılarda axtarmaq lazımdır




***2023-cü il üzrə Azərbaycanda orta illik inflyasiyanın 10,4 % civarında olacağı proqnozlaşdırılıb. Bu barədə Maliyyə Nazirliyinin "2023-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər sənədi"ndə bildirilib. İlkin proqnozlarda orta illik inflyasiya 6,9 % səviyyəsində nəzərdə tutulub, ancaq Nazirlik qeyd edir ki, yenidən baxılma zamanı faktiki göstəricilər, gözlənilən meyillər nəzərə alınmaqla inflyasiyanın 10,4 % səviyyəsində olacağı proqnozlaşdırılıb. Qeyd edək ki, bu, ilkin proqnozdan 3,5 faiz çoxdur.***

İnflyasiyanın artımı ilk növbədə dünyada baş verən iqtisadi proseslərlə bağlıdır. Hazırda qlobal bahalaşma müşahidə olunur və bu, şübhəsiz ki, Azərbaycandan da yan keçmir.

Lakin ortada subyektiv amillər də var. Belə ki, iqtisadçı Xalid Kərimli yerli KİV-ə açıqlamasında ölkədəki bahalaşma tempinin yüksəlməsində inhisarçıların da roluna diqqət çəkib. O, ölkə başçısının ilk yarımillik müşavirədə inflyasiya ilə bağlı öz fikirlərini bildirdiyini xatırladıb: "Müxtəlif amillər mövcuddur ki, onlar inflyasiyanın artımına səbəb olur. Həm də ölkə daxilində iqtisadiyyatın strukturunda ortaya çıxan məsələlər var. Ölkəyə mal gətirən bir neçə böyük oyunçu var və onlar çox ləng şəkildə qiymət azalmasını əks etdirirlər" (Referans.az).

"Rəqabət mühitinin zəif, idxalda ciddi monapoliya olduğuna görə və bir neçə qrupun əlində ciddi təmərküzləşmə getdiyinə görə burada belə problemlər baş verir" - deyə Xalid Kərimli qeyd edib.

Xatırladaq ki, bu ilin iyulunda Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirmişdi ki, inflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir: "Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər".

Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblərin də olduğunu diqqətə çatdıran dövlətimizin başçısı demişdi: "Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil".

Beləliklə, aydın görünür ki, Azərbaycandakı ikirəqəmli inflyasiyanın səbəbini qlobal iqtisadi proseslərlə yanaşı həm də inhisarçılarda axtarmaq lazımdır. Ölkəmizdəki qiymət artımı bir çox hallarda süni xarakter daşıyır və burada bir neçə monopolistin maraqları həlledici rol oynayır.

Belə olmasaydı, istər iqtisadçı ekspertlər, istərsə də sadə vətəndaşlar mediada, sosial şəbəkələrdə haqlı olaraq sual etməzdilər: nə üçün dünya bazarında qiyməti düşən bəzi məhsullar Azərbaycanda ucuzlaşmır? Həmin məhsulların qiyməti qalxan kimi Azərbaycanda da qiymətlər artır, bəs niyə qlobal ucuzlaşma olanda bunu ölkəmizdə müşahidə etmirik?

Əslində yuxarıdakı sualların cavabları elə onların özlərində gizlənib. İxracatda monopolist mövqeyə malik bir neçə iri oyunçu, mütəxəssislərin də vurğuladığı kimi, qiymət artımını sürətlə, azalmasını isə ləng şəkildə həyata keçirirlər. Nəticədə qazanan özləri, itirən isə əhali olur. Eyni zamanda hökumət süni bahalaşma ilə mübarizəyə vaxt, enerji itirmək məcburiyyətində qalır. Halbuki həmin vaxtı, həmin enerjini başqa problemlərin həllinə yönəltmək olardı...

Daha da konkretləşdirsək, Azərbaycanda inflyasiyanı artıran başlıca subyektiv amil inhisarçılıqdır. Əvvəla, əvvəl də vurğuladığımız kimi, ərzaq təminatında idxaldan asılı olan ölkəyə bu məhsulların idxalı bir neçə şirkətin əlində cəmləşib. Bu yaxınlarda yerli mətbuat, konkret olaraq "musavat.com" da yazmışdı ki, onlar arasında mövcud olan kartel sövdələşməsi nəticəsində idxal olunan məhsullar eyni səviyyədə yüksək qiymətə pərakəndə satışa təqdim edilir. Son 1 ildə qlobal ərzaq bazarında qeydə alınan 20 faizlik ucuzlaşmanın Azərbaycan bazarında hiss olunmamasının əsas səbəbi budur. İkinci məqam gömrük rəsmiləşməsi zamanı məhsulların qiymətinin real səviyyədən yüksək göstərilməsi ilə bağlıdır. Nəhayət, üçüncü məqam - pərakəndə ticarətdəki inhisarlaşmadır. Bir neçə böyük satış şəbəkələrində eyni məhsulun qiyməti demək olar ki, fərqlənmir. Bu da şəbəkələr arasındakı kartel sövdələşməsinin nəticəsi hesab olunur.

Qısası, Azərbaycanda monopolizmlə mübarizənin yeni mərhələyə keçməsi, xüsusilə, 20 ildən çoxdur ki, Milli Məclis tərəfindən qəbulu düyünə düşən Rəqabət Məcəlləsinin axır ki, qəbul edilərək inhisarçılığı şərtləndirən amillərin aradan qaldırılması qaçılmaz zərurətdir. Əks təqdirdə biz monopolistlərin bahalaşma oyunlarını hələ çox müşahidə edəcəyik.

***Toğrul Əliyev***

# Cahangir Əsgərovun ailə biznesi ilə bağlı görünməmiş olay

## "Gazelli" şirkəti məhkəməlik oldu; çıxan qərardan yaranmış sual: AZAL "şefinin" təsir imkanları azalır?

***Bakı Kommersiya Məhkəməsində Azərbaycanda nəzarət-kassa aparatlarının satışı ilə məşğul olan ”Billur Elm İstehsalat” MMC-nin ”Gazelli Group” MMC-yə qarşı iddia üzrə məhkəmə iclası başa çatıb.***

Məlumata görə, hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, ”Billur Elm İstehsalat” MMC-nin ”Gazelli Group” MMC-yə qarşı iddiası qismən təmin edilib.

Qeyd edək ki, ”Billur Elm İstehsalat” MMC ”Gazelli Group” MMC-ni məhkəməyə verərək müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr və sair öhdəliklər üzrə mübahisələr barədə tələb irəli sürüb. Bu MMC-nin barkod sistemlərinin quraşdırılması ilə məşğul olduğu bildirilir.



Məlumat üçün deyək ki, barkod (barcode) müəyyən informasiyanı texniki vasitələrlə rahat oxunacaq şəkildə təqdim edən qara və ağ zolaqların ardıcıllığıdır. Barkod vasitəsilə məhsulların bəzi mühüm parametrləri haqqında informasiya kodlaşdırılır. Barkod nömrələri ticarətdə, anbar uçotunda, poçtda, kitabxana işində, mühafizə sistemlərində, quraşdırma istehsalatında, sənədlərin işlənməsində istifadə olunur. Barkodların oxunması üçün barkod skaneri adlanan xüsusi cihazlardan istifadə olunur. Skaner öz işıqlandırıcısı ilə barkodu işıqlandırır və əldə olunan təsviri oxuyur.

Onu da deyək ki, “Gazelli Group” MMC-nin məhkəməyə verilməsi barədə ilk xəbər hələ ötən ilin dekabrında yayılmışdı. Həmin vaxt o da bildirilirdi ki, şirkətin qanuni təmsilçi İsmayılova Nərmin Vəkil qızıdır.

Onu da yada salaq ki, indiyədək mətbuatda dəfələrlə yayılan məlumatlara görə, ”Gazelli Group” MMC ”Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin prezidenti Cahangir Əsgərovun həyat yoldaşı Zərifə Həmzəyevaya məxsusdur. Sözügedən MMC 2008-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 42 milyon 32 min manat olan ”Gazelli Group”un qanuni təmsilçisi Nərmin İsmayılovadır. Onu da bildirək ki, Cahangir Əsgərovun həyat yoldaşı Zərifə Həmzəyeva eyni zamanda ”Premium Bank” ASC-nin əsas səhmdarıdır.

Düzdür, bu məlumat rəsmən təsdiqlənməyib, lakin təkzib də edilməyib.

AZAL ”şefi”nin ailə biznesinə daxil olan ”Gazelli”yə qarşı ölkədə, demək olar, tanınmayan bir MMC-nin iddia qaldırması və məhkəmənin həmin iddianı qismən də olsa təmin etməsi müəyyən iddialara yol açıb. Belə hesab edilir ki, bu, Cahangir Əsgərovun əvvəlki təsir imkanlarını itirməsi deməkdir.

Məsələ ondadır ki, Əsgərovun ”biznes imperiyasına” daxil olan şirkətlərin məhkəməyə verilməsi hallarına indiyədək təcrübədə bir o qədər də rast gəlinmirdi. Həmin şirkətlərlə mübahisə yaşayan tərəflər ya bundan çəkinir, ya da onların arxasında AZAL ”şefi” dayandığı üçün məhkəmə iddiası qaldırmağı mənasız, nəticəsiz iş, havayı vaxt, enerji itkisi hesab edirdilər.

Yuxarıda yazdıqlarımızın fonunda Cahangir Əsgərovun ailə biznesinin ən önəmli parçalarından birini təşkil edən ”Gazelli”nin məhkəməyə verilməsi, məhkəmənin isə iddiaçı tərəfin iddiasını qismən təmin etməsi maraq doğurmaya bilməz. Belə görünür, son zamanlar AZAL rəhbərliyində dəyişiklik olacağı barədə intensivləşən xəbərlər əsassız deyil, bu dəyişikliyin reallaşma ehtimalı kifayət qədər yüksəkdir.

Xatırladaq ki, hələ ötən ilin sonlarında ”Unikal” qəzeti olaraq 2023-cü ildə postunu itirməsi gözlənilən yüksək vəzifəli şəxslər arasında ”Azərbaycan Hava Yolları” nın hazırkı rəhbərinin də ola biləcəyini yazmışdıq. Qeyd etmişdik ki, hazırda 73 yaşı olan Cahangir Əsgərov iri məmur korpusunun ən yaşlı tək-tük nümayəndələrindən biridir. Nəzərə alsaq ki, ölkədə həyata keçirilən genişmiqyaslı islahatlar, eyni zamanda, yaşlı məmurların əvəzlənməsini də nəzərdə tutur, onda AZAL ”şef”inin əvəzlənməsi sürpriz qarşılanmayacaq.

Üstəlik, Cahangir Əsgərov 1996-cı ildən bu postu tutur, yəni 27 ildir eyni vəzifədə çalışır.

Eyni zamanda o, hazırda başda deputatlar, iqtisadçı ekspertlər, media və sadə vətəndaşlar olmaqla fəaliyyəti ən çox tənqid edilən məmurlardan biri, bəlkə də, birincisidir. Bir yandan Əsgərovun öz ”biznes imperiyasını” ağlasığmaz dərəcədə böyütdüyü halda ”Azərbaycan Hava Yolları”nın ilbəil zərər edərək borc batağlığına yuvarlanması (özü də ölkənin hava nəqliyyatında monopolist şirkət olmasına və dövlətdən dotasiya almasına baxmayaraq!) , digər tərəfdən isə AZAL-ın fantastik dərəcədə bahalı, hətta millət vəkilləri tərəfindən belə soyğunçuluq kimi dəyərləndirilən uçuş biletləri ictimai rəydə Cahangir müəllimin hədsiz dərəcədə mənfi obrazını yaradıb.

Bunları da göz önünə aldıqda ”Azərbaycan Hava Yolları” QSC-yə yeni rəhbər təyinatı qaçılmaz görünür, elə Əsgərovun ailə şirkətinə qarşı iddianın məhkəmədə hətta qismən də olsa təsdiqlənməsi bu prosesin siqnallarından biri kimi qəbul oluna bilər. Belə görünür, AZAL ”şef”i əvvəlki gücünü, həqiqətən də, itirməyə başlayıb...

***Sənan Mirzə***

# Ötən ay bu məhsullar bahalaşıb - Siyahı



***2023-cü ilin yanvar-iyul aylarında istehlak qiymətləri indeksi 2022-ci ilin yanvar-iyul aylarına nisbətən 112,2 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 114,3 faiz, qeyri-ərzaq məhsulları üzrə 111,0 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,4 faiz təşkil edib.***

”Unikal” xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Bildirilib ki, 2023-cü ilin iyul ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,3 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,4 faiz təşkil edib.

2023-cü ilin iyul ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 98,5 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,7 faiz təşkil edib.

Cari ilin iyul ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox ucuzlaşma çörəyin, unun, qarabaşaq yarmasının, vaflinin, təzə balığın, yoqurtun, südün, pendirin, yumurtanın, süfrə marqarininin, kərə, günəbaxan və qarğıdalı yağlarının, qarpızın, yemişin, üzümün, bananın, armudun, gavalının, bibərin, badımsanın, xiyarın, pomidorun, göy lobyanın, soğanın, kartofun, konfetlərin, çayın, mineral suların, arağın, bahalaşma isə əsasən qoyun ətinin, zeytun yağının, gilasın, əriyin, kələmin, sarımsağın, çuğundurun, yerkökünün, şəkər tozunun qiymətlərində müşahidə olunub.

Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. 2023-cü ilin iyul ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,0 faiz, əvvəlki ilin iyul ayına nisbətən 108,8 faiz təşkil edib.

2023-cü ilin iyul ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,6 faiz təşkil edib. İyul ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma, taksi nəqliyyatı ilə şəhərdaxili sərnişindaşıma xidmətlərinin və respublikadan kənara istirahət turlarının qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# Naxçıvanın keçmiş ədliyyə nazirinin hakimliyi bitdi



***Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təqaüdə göndərilib.***

”Qafqazinfo”nun əldə etdiyi xəbərə görə, hakim Məhəmməd Əkbərovun icraatında olan sonuncu cinayət işi üzrə hökm oxunub. O, yaş həddi ilə bağlı hakimlik səlahiyyətini yekunlaşdırıb.

Qeyd edək ki, Məhəmməd Əkbərov 5 ildir Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi idi. O, 1998-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri olub. 2000-2007-ci illərdə Naxçıvan MR İqtisadi Məhkəməsinin, 2007-2017-ci illərdə Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin sədri işləyib.

# Bu istirahət mərkəzlərinin rəhbərləri cəzalandırıldı

***Tovuz rayonu ərazisində fəaliyyət göstərən “Tural”, “Yurd yeri”, “Fındıqlı” və “Nəvələr” istirahət mərkəzlərindən ətrafa tullantıların atıldığı və çirkab suların axıdıldığı müəyyən edilib.***

Bu barədə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəsmisi Xaliq Mirzəyev məlumat verib. X.Mirzəyev qeyd edib ki, faktlarla bağlı “Tural” istirahət mərkəzinin icarədarı Əlixan Tağıyev, “Yurd yeri” istirahət mərkəzinin cavabdeh şəxsi Afiq İsmayılov, “Fındıqlı” istirahət mərkəzinin səlahiyyətli nümayəndəsi Arif Hümbətov və “Nəvələr “ istirahət mərkəzinin iş icraçısı Xanoğlan Qasımov barəsində akt, protokol tərtib olunub:

“Qanunamüvafiq tədbirlər görülüb. Gələcəkdə belə hallara yol verilməməsi üçün iaşə obyektlərinin sahiblərinə məcburi göstəriş verilib”.



## 2023-cü ilin 6 ayında Abşeronda "sosial-iqtisadi inkişafın" göstəriciləri

***Dövlət başçısının regionların iqtisadi inkişafı yolunda yeritdiyi məqsədyönlü siyasəti nəticəsində ölkənin bütün regionlarında, o cümlədən Abşeron rayonunda da qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın yüksəlməsi ilə müşahidə olunub.***

Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən altı ay ərzində 378.4 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bunun nəticəsində də sənaye istehsalı indeksi 114.5 faiz olmuşdur. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 327.0 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 86.4 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 18.6 milyon manat olmuşdur. Hesabatların təhlilindən məlum olur ki, Abşeron rayonunun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 11.9 milyon manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 15.7 faiz çox rabitə xidməti göstərilmişdir. Əldə olunan gəlirin 54.0 faizi qeyri-dövlət sektorunun payına düşür.

Hesabat dövründə rayonda 129.5 milyon manatlıq investisiya qoyuluşu olmuşdur. Bu investisiyanın 123.8 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

İlin yanvar-iyun ayları ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 672.0 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 25.8 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 65.5 milyon manat olmuşdur ki, bunun da 24.4 milyon manatı dövlət, 41.1 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

İlin birinci yarımilində 822.8 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında 2023-cü il iyul ayının 1-i vəziyyətinə 21481 baş iribuynuzlu mal-qara, o cümlədən 13850 baş inək və camış, 100237 baş isə qoyun və keçi mövcud olmuşdur. Cari ildə təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 6189.0 ton ət, 19500 ton süd istehsal edilmişdir.

2023-cü il iyun ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 41455 nəfər olmuş, bundan 13727 nəfəri dövlət, 27728 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 140128.4 min manat, rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı isə 709.4 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 6.7 faiz, orta aylıq əməkhaqqı isə 14.3 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Təvəkkül Mirzəyev,***
***Abşeron Rayon Statistika İdarəsinin rəisi***

# Yasamalda İbrahim Mehdiyev "ənənələri"...

## Paytaxtın bu rayonundan vətəndaş şikayətləri səngimək bilmir



***Yerli mediada Bakının Yasamal rayonunda küçələrin və piyada səkilərinin zəbt edilərək, yaxud yaşıllıqların kəsilərək yerində ticarət obyektləri tikilməsi barədə xəbərlərin ard-arası kəsilmir. Bildirilir ki, rayon ərazisində günügündən bu cür qeyri-qanuni obyektlərin sayı artır.***

Naməlum şəxslər əvvəlcə ərazilərdə dəmir konstruksiyadan ibarət köşklər salır və sonradan onların ətrafı daş üzlüklərlə üzlənilir. Bu da insanların haqlı narazılığına səbəb olur.

Məsələn, bu günlərdə eyni aqibətlə Yasamal rayonu, Şərifzadə küçəsi 94 ünvanında yaşayan sakinlər də üzləşiblər. Belə ki, yaşayış binasının blokunun sakinlərinin dincəlməsi üçün nəzərdə tutulan yerdə dəmir konstruksiya qurularaq, mağaza tikilib. Sakinlər isə narazılıq edərək, metal konstruksiyaların sökülməsini tələb edirlər.

Qaynarinfo-nun məlumatına görə, məsələ ilə bağlı Yasamal Rayon İcra Hakimiyyəti nümayəndələri hadisə yerinə gəlməyib və mağazanın sahibləri ilə sakinlər üz-üzə qalıblar.

Daha əvvəl isə ölkə mətbuatında Yeni Yasamal ərazisində yaşayan sakinlərin piyada səkilərinin zəbt olunması ilə bağlı şikayətləri gündəmə gəlmişdi. Bildirilirdi ki, bu proses həmin səkilərdə eybəcər köşklərin quraşdırılması, dükanların açılması ilə nəticələnib.

"Onsuz da həmin küçədə piyadaların hərəkəti üçün demək olar ki, yol saxlanılmayıb. Bu azmış kimi, piyada zolaqlarında, yol kənarında insanların avtomobillərin hərəkətindən yayınmaq üçün dura biləcəyi yerlər zəbt edilərək, ticarət köşkləri qurulub. Köşklərin qarşısında, yəni piyada keçidlərinin üzərində meyvə-tərəvəz satılır. Sakinlər isə məcbur olub avtomobil yolu ilə hərəkət etməli olur" - deyə KİV yazırdı.

Qeyd olunurdu ki, Yeni Yasamalın təkcə Əsəd Əhmədov küçəsində iki ayda 10-a yaxın kiçik və iri həcimli eybəcər köşklər qoyulub. Bir vaxtlar Bakı şəhəri İcra Hakimiyyətinin başçısı olmuş Hacıbala Abutalıbovun əmri ilə paytaxtda müasir standartlara cavab verən, şəhərin tarixi-memarlıq üslubuna uyğun qoyulan köşklər Yeni Yasamalda yenidən köhnələri ilə əvəzlənib.

İlin əvvəllərində isə Yasamal rayon Akim Abbasov küçəsi, 20 ünvanında irigövdəli ağaclar kəsilərək yerində artırılma edildiyi üzə çıxmışdı. "Deyə bilərlər ki, ağaclar köçürülüb, amma kökündən yalandır. Çünki nə yaz deyil, nə payız, qışın qarlı ayında ağac köçürülməsi mümkün deyil. Ağacların köçürülməsi əsasən payız aylarında baş tutur. Məhv ediblər neçə illik ağacları, yerini isə kimlərəsə satıblar, ya da öz obyektlərinin yerini böyüdüblər" deyə həmin vaxt KİV-də yer alan videoreportajda vurğulanırdı.

Ümumiyyətlə, internet üzərindən kiçik bir axtarış verməık kifayətdir ki, Yasamalda səkilərin zəbt edilməsi, yaşıllıqların məhv edilərək yerində nələrsə inşa olunması ilə bağlı çoxsaylı şikayət, informasiya qarşımıza çıxsın.

Bir sözlə, Bakının ən böyük rayonlarından biri olan Yasamalda keçmiş icra başçısı İbrahim Mehdiyevin rəhbərlik etdiyi dövə xas olan və az qala normal qarşılanmağa başlayan zərərli "ənənələr", deyəsən, nəinki aradan qaldırılmayıb, hətta belə görünür, daha geniş yayılıb.

Xatırladaq ki, Yasamala 11 il boyunca (2006-2017-ci illərdə) rəhbərlik edən Mehdiyevin icra başçılığı dönəmində paytaxtın bu rayonunda hər qarış torpaq kimlərəsə peşkəş edilir, ağaclar qanunsuz kəsilir, yaşıllıqlar bir gecədə "qeybə çıxır", bütün bunların yerində isə ticarət, iaşə obyektləri peyda olurdu. Həmin dövrdə Yasamal sakinlərinin yaranmış acınacaqlı situasiyadan narazılığı pik nöqtəyə çatmışdı, bu rayon qanunsuz ağackəsmə, qanunsuz tikinti, qanunsuz söküntü işlərində paytaxtın digər rayonu Xətai ilə "rəqabət" aparırdı. Elə bir gün olmurdu ki, bu iki rayondan birində oxşar mövzularda şikayət, narazılıq, giley-güzar səslənməsin.

Nəticədə hər iki rayonun icra başçısı - həm İbrahim Mehdiyev, həm də Razim Məmmədov postlarından kənarlaşdırıldılar.

Ancaq görünən odur ki, paytaxtın Yasamal rayonunda müsbətə doğru çox şey dəyişməyib - yasamallılar hələ də köhnə problemlərin həll edilməməsindən, bu da azmış kimi, bir çox ərazilərdə daha da dərinləşməsindən gileylənirlər.

Xatırladaq ki, daha əvvəl Yasamal 3-cü Seçki Dairəsindən deputat seçilmiş Elşad Həsənov 2019-cu ildə ölkə başçısı tərəfindən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Bu təyinatdan sonra güman edilirdi ki, adıçəkilən rayondan, az qala, eyni məzmunlu, eyni motivli şikayətlərin axını azalacaq. Axı indiki icra başçısı elə deputat olaraq da Yasamalın problemlərinə öncədən bələd idi. Lakin gümanların, gözləntilərin özünü doğrultmasından danışmaq mümkün deyil.

Yasamal hələ də İbrahim Mehdiyevin icra başçılığı dövründə yığılıb-qalmış problemlərin girdabında çapalamağa davam edir. Daha nə qədər davam edəcək, bunu zaman göstərəcək. Ancaq bu birmənalıdır ki, Yasamal sakinlərinin mediadakı, sosial şəbəkələrdəki aramsız şikayətlərini kökündən, real şəkildə aradan qaldırmağın vaxtı artıq çoxdan çatıb, bəlkə də, artıq keçib...

***Sənan Mirzə***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İctimai nəzarət cəmiyyətin inkişafına dəstək verir

## Sahib Məmmədov: "Yaxşı olar ki, QHT-lər ixtisaslaşdığı sahələr üzrə dövlət qurumlarında ictimai nəzarəti həyata keçirsinlər"

***Tez-tez hansısa qurumda ictimai şuraya seçkilər keçirildiyi barədə xəbərlər eşidirik. Vətəndaşların dövlət qurumları üzərində ictimai nəzarəti təmin etməsi müsbət addım olsa da, heç də bütün ictimai şuralar öz işini layiqincə görə bilmir. Bəzən bir qeyri hökumət təşkilatının (QHT) bir neçə ictimai şurada təmsil olunduğuna da rast gəlinir. Bəs görəsən ictimai şuraların fəaliyyəti qənaətbəxş hesab oluna bilərmi?***

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov "Unikal"a açıqlamasında bildirib ki, ictimai nəzarətin bir neçə forması var. Onlardan biri də dövlət qurumlarının fəaliyyətinə ictimai nəzarəti təmin etmək üçün ictimai şuraların fəaliyyət göstərməsidir. Həmsöhbətimiz deyir ki, ümumiyyətlə vətəndaşların sosial və siyasi fəallığı cəmiyyətin inkişafına təkan verir. Onun sözlərinə görə, vətəndaşlar ictimai şuralarda təmsil olunmadan da,hər hansı bir qanun layihəsinin qəbul olunmasında fəal iştirak edə, ictimai müzakirəyə çıxardılan zaman öz rəyini bildirməklə qanun layihəsinin təkmilləşməsinə dəstək ola bilər.

S. Məmmədov deyir ki, qanunvericiliklə bir QHT-nin bir neçə dövlət qurumu yanında ictimai şurada təmsil olunmasına zidd bənd yoxdur. Bununla belə Liqa sədri deyir ki, bunun üçün QHT-nin resursları olmalıdır: "QHT-lərin ictimai şuralarda təmsil olunması müsbət haldır. Qanunla da bir QHT-nin bir neçə dövlət qurumu yanında ictimai şuraya üzv olmasında problem yoxdur. Amma gəlin görək, həmin QHT bir neçə dövlət qurumunda ictimai nəzarəti yerinə yetirə bilirmi? Çox yaxşı olardı ki, bir QHT-dən müxtəlif şəxslər ictimai şuralarda təmsil olunsun. Amma bu gün QHT-lərin maddi vəsaiti az olduğundan onlar bir sədr, bir mühasibdən ibarətdir".

S. Məmmədov onu da vurğu-



layıb ki, ictimai şuralarda təmsil olunan QHT-lər həmin sahədə ixtisaslaşmalıdır.

"Yaxşı olar ki, QHT-lər ixtisaslaşdığı sahələr üzrə dövlət qurumlarında ictimai nəzarəti həyata keçirsinlər. Bu zaman onların fəaliyyəti daha səmərəli olur. Həmin sahədə qanunvericiliyin təkmilləşməsi, boşluqların aradan qaldırılması, problemlərin həll olunması üçün təkliflər verirlər" deyə S. Məmmədov bildirib.

S. Məmmədov deyir ki, son dövrlər ölkəmizdə ictimai iştirakçılıq və ictimai nəzarət mexanizmlərinin yaradılması və inkişafı üçün müxtəlif addımlar atılmaqdadır. Bu prosesdə vətəndaş cəmiyyəti təşkilatlarının rolunu artırmaq üçün mərkəzi və yerli icra hakimiyyətləri yanında İctimai Şuraların yaradılması və fəaliyyətinin genişləndirilməsi də günün vacib tələblərindən biridir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 27 fevral 2020-ci il tarixli sərəncamı ilə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Fəaliyyət Planının 5.5. maddəsində "İctimai Şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi" qeyd olunur.

Məlumat üçün bildirək ki, İctimai Şurada üzvlüyə yüksək mənəvi və əxlaqi keyfiyyətlərə, mədəniyyət sahəsi üzrə təcrübəyə və ya biliyə malik Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir fəaliyyət qabiliyyətli vətəndaşının namizədliyi irəli sürülə bilər. Həmçinin hər bir vətəndaş cəmiyyəti institutu İctimai Şurada üzvlüyə yalnız bir namizəd irəli sürə bilər.

İctimai Şuraların yaradılması cəmiyyətdəki mövcud problemlərin həlli üçün dövlət orqanları ilə cəmiyyət arasında əlaqələrin yaranmasına, dövlət orqanlarına dəstək mexanizminin formalaşmasına şərait yaradıb.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məqamlara toxunaraq "Biz cəmiyyətdə də elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət güclənsin. Siz yaxşı bilirsiniz ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin. İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin", - deyə bildirib. Dövlət başçısı media nümayəndələrinin bu sahədə çox böyük rolunun olduğunu da diqqətə çatdırıb: "Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir".

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, güclü ictimai nəzarətin təmin olunması ölkənin qarşısında duran məsələlərin həllində çox mühüm amildir. Xüsusilə də, müxtəlif sahələrdə neqativ halların aradan qaldırılmasında ictimai nəzarətin vacib rolu var.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsinə start verildi



***İsveçrədə Azərbaycan Diaspora Dəstək Fondunun "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsinə start verilib.***

Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib. 7-13 avqust 2023-cü il tarixində gerçəkləşdiriləcək layihə çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam, Şuşa, Laçın, Cəbrayıl, Füzuli, Zəngilan şəhər məktəblərinin şagirdləri İsveçrədə fəaliyyət göstərən "Qarabağ" həftəsonu məktəbinin şagirdləri ilə birlikdə "Juvenat" düşərgəsində yerləşiblər. Layihədə Azərbaycandan 17 şagird və 2 müəllim, İsveçrədən 11 şagird və 2 müəllim iştirak edəcək. Düşərgəyə "Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi"nin rəhbəri Qasım Nəsirov rəhbərlik edir.

Şagirdlərin Qarabağın tarixi haqqında məlumatlandırılması, mədəni-maarifləndirici panellərdə iştirakı, Bern, Balenberq və digər şəhərlərin görməli yerləri ilə tanışlığı, İsveçrə parlamentinə, müxtəlif muzeylərə səfəri, təbiət gəzintiləri, əyləncəli oyunları və təcrübə mübadiləsi nəzərdə tutulub.

Xatırladaq ki, bu layihənin icrasına ötən ildən başlanılıb. Layihə çərçivəsində İsveçrədə fəaliyyət göstərən həftəsonu məktəbinin şagirdləri ilə məcburi köçkün və şəhid ailələrinin övladları 18-24 iyul 2022-ci il tarixində Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən "Cırtdan" Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzində təlimlər keçiblər.

Layihədə İsveçrədən 10 şagird və 2 təlimçi, yerli məktəblərdən 14 şagird və 2 təlimçi iştirak edib. Bir həftə ərzində mədəni-maarifləndirici panellərdə iştirak edən şagirdlərin ölkəmizin dilbər guşələrinə, muzeylərə səyahəti təmin edilmişdi. Eyni zamanda daimi kommunikasiya və şəbəkələşmə ilə yanaşı, Azərbaycan dili təlimləri keçirilmişdi.

Bu layihə Prezident İlham Əliyevin ölkəmizin mədəniyyət paytaxtı Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı həftəsonu məktəblərinin açılması istiqamətində fəaliyyətin gücləndirilməsi, bütün Azərbaycan vətəndaşlarını birləşdirən Ana dilinin daim təbliğ olunması tövsiyələri çərçivəsində gerçəkləşdirilməkdədir.

Xatırladaq ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə xarici ölkələrdə "Qarabağ məktəbləri"nin qurulması prosesinə başlanılıb. Fransanın Nant, İsveçrənin Bern, Polşanın Varşava, İsveçin Stokholm şəhərlərində həftəsonu məktəbləri fəaliyyətə başlayıb. Bu məktəblərin məqsədi azərbaycanlı uşaqlara ana dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini tədris etməklə yanaşı, milli kimliklərini qoruyub saxlamaq naminə ölkəmizlə bağlı həqiqətləri də onlara indidən aşılamaqdır.

# Jurnalistika üzrə qabiliyyət imtahanının nəticələri açıqlandı



***Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün avqustun 6-da keçirilən qabiliyyət imtahanının nəticələrini elan edib.***

DİM-dən "Unikal"a bildirilib ki, abituriyentlər DİM-in saytında imtahan nəticələri ilə tanış ola bilərlər. İmtahanda iştirak etmək hüququ qazanmış 519 abituriyentdən 98 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 374 nəfər "məqbul" qiymət alıb.

Məqbul qiymət alan abituriyentlər ixtisas seçimi zamanı öz elektron ərizələrində digər ixtisaslarla yanaşı jurnalistika ixtisasını da seçə bilərlər. İxtisas seçimi avqustun 16-dan 28-dək aparılacaq.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 15 avqust 2023-cü il tarixindən etibarən onlayn ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək.

Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 13 avqust saat 10:00-dan 14 avqust saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər.

Bir abituriyentin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.



## 11 heyvan kəsimi və ət satışı məntəqəsində nöqsanlar aşkarlandı

***Qida Təhlükəsizliyi Agentliyi ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir kəsim məntəqələrinin təşkili və qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması istiqamətində nəzarət tədbirlərini davam etdirir.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a verilən məlumata görə, avqustun 9-da respublika üzrə fəaliyyət göstərən ət satışı və heyvan kəsimi məntəqələrində aparılan monitorinqlər zamanı Bakı şəhəri, Masallı və İsmayıllı rayonlarında bir sıra nöqsanlar aşkarlanıb.

Aşkarlanmış uyğunsuzluqlarla əlaqədar 8 heyvan kəsimi və ət satışı məntəqəsi ilə bağlı inzibati tədbir görülüb, 3 məntəqədə isə yenidən bərpa olunmuş qurğu sökülüb.

Baytarlıq-sanitariya ekspertizası aparılmadan heyvan kəsimi və ət satışı fəaliyyəti ilə məşğul olan və barələrində inzibati protokol tərtib edilib və ya qanunsuz metal konstruksiyaları sökülən məntəqələrin siyahısı ilə linkdə tanış olmaq olar.

Qanunsuz heyvan kəsiminin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

## Şəkidə bələdiyyə sədri cəzalandırıldı



***Şəki rayonunun Baş Göynük kəndinin bələdiyyə sədri cəzalandırılıb.***

Bu barədə "Unikal"a DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan məlumat verilib.

Bildirilib ki, Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə keçirdikləri tədbir nəticəsində Baş Göynük kəndi ərazisində sənaye və məişət tullantılarının qalaqlanması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktı aşkar olunub. Bu səbəbdən kəndin bələdiyyə sədri barəsində protokol tərtib olunub və baxılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional idarəsinə göndərilib.

## "BHS Fiber" şirkəti cərimələndi

***İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) ilk dəfə olaraq provayderi cərimə edib.***

"Unikal" xəbər verir ki, bu barədə İKT üzrə ekspert Osman Gündüz məlumat paylaşıb.

O bildirib ki, Xırdalanda fəaliyyət göstərən "BHS Fiber" şirkəti uçota durmadığı üçün cərimələnib.

"Yəni, bu provayderin adı, ünvanı , əlaqələri və s. heç kimə məlum olmayıb. Xəbərdarlıq olsa da, uçota düşməyib. Mövcud qanunvericilikdə isə bununla bağlı 1500 manatadək cərimə nəzərdə tutulub ki, RİNN-nin yeni Agentliyi ilk dəfə bu səlahiyyətindən istifadə edib".

Ekspert xatırladıb ki, ölkədə 200-dək internet servis provayder olsa da, hələlik İKTA saytında 138 provayderin uçota düşdüyü görsənir.

# Baş Prokurorluq vətəndaşın şikayəti ilə bağlı açıqlama yaydı

***Bir sıra sosial şəbəkə kanallarında vətəndaş Ramil Hüseynovun ona məxsus mənzilin qanunsuz ələ keçirilməklə hüquqlarının pozulması, şikayəti üzrə hüquq-mühafizə orqanlarında qeyri-obyektiv araşdırma aparılması ilə bağlı həqiqətə uyğun olmayan müraciətləri yayımlanıb.***




"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun yaydığı məlumatda deyilir.

"Qeyd edilənlər tərəfimizdən təkzib edilməklə bildirilir ki, vətəndaş Ramil Hüseynov dəfələrlə prokurorluq orqanlarında qəbul edilərək dinlənilib və hüquqları izah olunub.

Belə ki, yaşadığı mənzilin girov qoyulması müqabilində R.Hüseynova 2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun (hazırda Sahibkarlığın İnkişafı Fondu) vəsaitləri hesabına müvafiq bank tərəfindən 50 min manat məbləğində güzəştli kredit vəsaiti verilsə də, R.Hüseynov tərəfindən öhdəliklərinin icra edilməməsi ilə bağlı bankın mülki iddiası üzrə Nəsimi Rayon Məhkəməsinin qətnaməsi əsasında mənzilin satılaraq borcun ödənilməsi, artıq qalan məbləğin isə vətəndaşa qaytarılması qərara alınıb", - açıqlamada qeyd edilir.

Vurğulanıb ki, qeyd edilən mənzil ilk iki hərracda alıcı olmadığından növbəti hərracda qanunvericiliyin tələbinə əsasən 118 min manata dəyərləndirilməklə satılıb, lakin R.Hüseynov heç bir əsas olmadan mənzili tərk etməyib:

"Mülki iş üzrə cavabdeh olan R.Hüseynov tərəfindən qətnamədən verilən şikayətlər Bakı Apellyasiya Məhkəməsinin 12.10.2018-ci il tarixli, Ali Məhkəmənin isə 08.05.2019-cu il tarixli qərarları ilə təmin edilməyib.

Bununla yanaşı, R.Hüseynov mənzilin qanunsuz olaraq hərrac yolu ilə satılması barədə müraciəti üzrə Bakı şəhəri Yasamal rayon polis idarəsində araşdırma aparılıb.

Araşdırma zamanı toplanmış material üzrə şikayətçinin göstərdiyi, o cümlədən rəsmi sənədlərin saxtalaşdırılmasına dair qeyd etdiyi xüsusatlar təsdiq olunmadığından 10.03.2023-cü il tarixdə cinayət işi başlanmasının rədd edilməsi barədə qərar qəbul olunub, həmin qərarın qanuniliyi və əsaslılığı Yasamal Rayon Məhkəməsində öyrənilərək 19.04.2023-cü il tarixli qərarla qanuni hesab edilib, Bakı Apellyasiya Məhkəməsinin 01.05.2023-cü il tarixli qərarı ilə Yasamal Rayon Məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

Vətəndaş tərəfindən irəli sürülən xüsusatların hərtərəfli araşdırılmasına, eləcə də müvafiq məhkəmələr tərəfindən qəbul edilmiş qərarların qüvvədə saxlanmasına dair qərarlar qəbul edilməsinə baxmayaraq, R.Hüseynov əsassız olaraq bəzi sosial şəbəkə kanalları vasitəsilə hüquq-mühafizə orqanlarının nüfuzuna və qanuni fəaliyyətinə yönəlmiş böhtan xarakterli fikirlər səsləndirməklə hadisələri təhrif edərək öz mənafeyinə uyğun qanunsuz qərarların qəbul olunmasına cəhd edib.

Bununla əlaqədar, R.Hüseynov bir daha Bakı şəhər prokurorluğunun rəhbərliyi tərəfindən qəbul edilməklə ona irəli sürdüyü xüsusatların mülki mühakimə icraatı qaydasında baxılaraq qanunamüvafiq qərarların qəbul edildiyi, pozulduğunu iddia etdiyi hüquqlarının bərpası ilə əlaqədar məhkəmə orqanlarına müraciət hüququnun olması izah edilib".

# Yevlaxın bu yarımillikdə ticarət sahəsi üzrə statistikası

***2023-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi 272851,1 min manat olmuş və keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 8,6 faiz artmış, müqayisəli qiymətlərlə isə 4,3 faiz azalıb.***



2023-cü ildə Yevlax rayonu üzrə pərakəndə ticarət dövriyyəsinin xüsusi çəkisi ölkə üzrə əmtəə dövriyyəsində 1,04 faiz təşkil etmişdir. 2023-cü ilin iyul ayının 1-i vəziyyətinə 150 fərdi sahibkarın və 410 fərdi şəxsin məşğul olduğu 560 yerlik, 9200 kv.m sahəsi olan ərzaq və qeyri ərzaq malları bazarı fəaliyyət göstərir.

Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 52,2 faiz, yəni 142406,3 min manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 47,8 faiz, yəni 130444,8 min manat olmuşdur.

2023-cü ilin yanvar-iyun aylarında ticarət şəbəkəsindən rayonun hər bir sakini orta hesabla 1952,3 manat və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 190,0 manat çox istehlak malları almışdır.

2023-cü ilin hesabat dövründə pərakəndə satışın 8,5 faizini (23131,7 min manatını) rəsmi qeydiyyatdan keçmiş müəssisələr, 43,9 faizini, (119724,4 min manatını) bazar və yarmarkalar, 47,6 faizini, (129995,0 min manatını) isə fiziki şəxslər təşkil etmişdir.

Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən əhaliyə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 19481,5 min manat çox istehlak malları satılmışdır. 2023-cü il iyul ayının 1-i tarixinə ticarət şəbəkə və anbarlarında əhalinin tələbatını təmin etmək üçün 23877,6 min manatlıq mal ehtiyatları olmuşdur.

Pərakəndə mal ehtiyatlarının 3019,6 min manatı rəsmi qeydiyyatdan keçmiş müəssisələrin, o cümlədən 3010,2 min manatı iri, orta və kiçik müəssisələrin, 9,4 min manatı mikro müəssisələrin, 20858,0 min manatı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların şəbəkələrində və anbarlarında olmuşdur.

***Mehriyyə Vəliyeva,***
***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi***

# Bu ilin ötən dövründə Ağdaş rayonunun makroiqtisadi göstəriciləri artıb



***2023-cü ilin yanvar-iyun aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 234 milyon 615,8 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 2,9 faiz və ya 5 milyon 990,6 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı tikinti-quraşdırma işləri sahəsində 2,5 dəfə və ya 4 milyon 435,4 min manat, informasiya və rabitə sahəsində 13,5 faiz və ya 44,5 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 3,5 faiz və ya 3 milyon 679,9 min manat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində isə 0,2 faiz və ya 91,0 min manat artmış, sənaye məhsulu istehsalı sahəsində 4,3 faiz və ya 2 milyon 84,0 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 5,5 faiz və ya 176,2 min manat azalmışdır.

Ümumi məhsul buraxılışının 51,7 faizi kənd təsərrüfatı, 22,0 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 21,5 faizi sənaye, 3,2 faizi tikinti, 1,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,2 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 76,4 faizi istehsal sahələrinin, 23,6 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 121 milyon 376,5 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 66 milyon 1,6 min manatı və ya 54,4 faizi bitkiçilik, 55 milyon 374,9 min manatı və ya 45,6 faizi heyvandarlıq məhsullarının payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı 3,5 faiz artmışdır.

Rayonun 17 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 50 milyon 425,8 min manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən qiymət indeksi nəzərə alınmaqla 4,3 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 89,4 faizi emal, 8,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 4 milyon 783,0 min manatı və ya 9,5 faizi dövlət, 45 milyon 642,8 min manatı və ya 90,5 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 45 milyon 9,8 min manatı və ya 89,3 faizi hüquqi şəxslərin, 5 milyon 38,0 min manatı və ya 10,0 faizi ev təsərrüfatlarının, 378,0 min manatı və ya 0,7 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2023-cü ilin yanvar-iyun aylarında rayonda 7 milyon 490,8 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,1 dəfə, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 2,4 dəfə artmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 221,3 min manatı və ya 3,0 faizi dövlət, 7 milyon 269,5 min manatı və ya 97,0 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

2023-cü ilin yanvar-iyun aylarında rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahəsində 55 milyon 322,7 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqaisədə qiymət indeksi nəzərə alınmaqla 0,1 faiz və ya 40,7 min manat azdır. İstehsal olunmuş xidmətlərin 51 milyon 715,8 min manatı və ya 93,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 3 milyon 232,5 min manatı və ya 5,8 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 374,4 min manatı və ya 0,7 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 162 milyon 118,5 min manatlıq istehlak malları satılmış və 2022-ci ilin eyni dövrü ilə müqayisədə rayonda 0,2 faiz və ya 285,2 min manat çox istehlak malları realizə olunmuşdur.

2023-cü ilin yanvar-iyun aylarında müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən rayonun iqtisadı və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 9 milyon 811,6 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,8 faiz çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 7 milyon 490,8 min manatı və ya 76,3 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 2 milyon 320,8 min manatı və ya 23,7 faizi isə maşın və avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur.

***Arif Qurbanov***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

# Bir neçə rayonda ağacları kəsən vətəndaşlar cəzalandırıldı

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Qəbələ rayonunun Vəndam qəsəbəsi ərazisində 1 ağacın kəsilməsi, Şəki rayonunun Cəfərəbad kəndində, Saatlı rayonunun Qara Nuru kəndinin ərazisində fəaliyyət göstərən kafenin həyətində, Saatlı şəhəri H.Əliyev prospektində fəaliyyət göstərən "Xan-Bağı" restoranının həyətində və Şirvan şəhərinin Energetik 2T ünvanında isə ağacların zədələnməsi faktları



müəyyən edilib.

Xidmət rəsmisi Bəhruz Məhəmmədov "Unikal"a bildirib ki, araşdırma zamanı ağacların Qəbələ rayonunda vətəndaş Mayıs Abdurəhmanov tərəfindən kəsildiyi, Şəki rayonunda vətəndaş Nəsib Əskərov, Saatlı rayonunun Qara-Nuru kəndindəki kafenin nümayəndəsi İlham Səfərov, Saatlı şəhərində "Xan-Bağı" restoranının iş icraçısı Elşən Nərimanov, Şirvan şəhərində isə vətəndaş Tarverdi Dövlətov tərəfindən zədələndiyi məlum olub.

"Faktlarla bağlı akt, protokol tərtib olunub və qanunamüvafiq tədbirlər görülüb".



# Şəhid kapitan anıldı

***09.08.2023-ci il torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən birinin, kapitan Məmmədov Pərviz Ələddin oğlunun doğum günüdür.***

"Unikal" xəbər verir ki, Qaradağ rayon İcra Hakimiyyətinin başçısı, icra hakimiyyətinin vəzifəli şəxsləri, rayon ictimaiyyət nümayəndələri,din adamları şəhid kapitan Məmmədov Pərviz Ələddin oğlunun doğum günü ilə əlaqədar olaraq şəhidin məzarını ziyarət ediblər, məzarı üzərinə gül dəstəsi qoyublar.

Şəhidin valideyinləri dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı olduqlarını bildiriblər. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və birinci Vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını ifadə ediblər.

Qeyd edək ki, Məmmədov Pərviz Ələddin oğlu 09.08.1989-cu il tarixində Tovuz rayonu, Çeşməli kəndində anadan olub.Daha sonra ailəsi ilə birlikdə Qaradağ rayonu Lökbatan qəsəbəsinə köçüb. 44 günlük Vətən müharibəsində düşmənə qarşı aparılan ədalət mübarizəsində iştirak edib və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə 30.09.2020-ci il tarixində qəhrəmancasına şəhid olub. Qaradağ rayonu Lökbatan qəsəbəsində yerləşən şəhidlər xiyabanında dəfn olunub. Müharibədə göstərdiyi rəşadətə, igidliyə görə Ali Baş Komandanın sərəncamına əsasən "Vətən uğrunda" medallı ilə təltif olunub.

# Baş prokuror Samuxda vətəndaşları qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il avqustun 17-də, saat 10:00-da Samux rayon prokurorluğunun inzibati binasında Samux, Göygöl, Daşkəsən və Kəlbəcər rayon sakinlərinin qəbulunu keçirəcək.***

"Unikal" xəbər verir ki, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Samux rayonuna gəlmələrinin təşkili rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu, contact@prosecutor.gov.az elektron poçt ünvanı, həmçinin prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Gəncədə tikinti şirkətinə məxsus maşın aşdı

***Gəncədə tikinti şirkətinə məxsus avtomobil qəza zamanı aşıb.***

"Unikal"ın məlumatına görə, hadisə şəhərin Fətulla Həsənov küçəsində qeydə alınıb. Gəncədə Körpü-Tikinti şirkətinə məxsus olan 20-AA-432 "Suzuki" markalı avtomobil "VAZ 2107" markalı avtomobillə toqquşub.

Zərbənin təsirindən "VAZ" markalı avtomobilin sürücüsü xəsarət alıb, tikinti şirkətinə məxsus avtomobil isə aşıb.

Hadisənin baş vermə səbəbləri araşdırılır.

# Kim Çen In orduya əmr verdi



***Şimali Koreya lideri Kim Çen In mümkün müharibəyə "hücu-medici" hazırlıq görməyə çağırıb.***

"Unikal" KCNA-ya istinadən xəbər verir ki, bu bəyanat Cənubi Koreya və ABŞ-ın birgə hərbi təlimlər planları fonunda verilib.

"O, Koreya yarımadası və onun ətrafındakı mövcud vəziyyəti dərindən ümumiləşdirdi və təhlil etdi və Koreya Xalq Ordusunun hücum xarakterli hərbi hazırlığının daha da artırılması ilə bağlı əmrlər verdi", - agentlik yazıb.

Qeyd olunur ki, ötən ay Rusiyanın müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi Rusiya hərbi nümayəndə heyətinin səfərindən sonra Kim Çen In bu yaxınlarda Şimaldakı əsas silah-sursat zavodlarına üç günlük "sahə turu" keçirib.

***Gülayə Mecid***

# Ərdoğan 57 şəhərin valisini dəyişdi



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 57 şəhərin valisini dəyişib.***

"Unikal" haberler.com-a istinadən xəbər verir ki, bu barədə qərar hökumətin və Türkiyə Milli Təhlükəsizlik Şurasının bu həftə keçirilən iclaslarında qəbul edilib.

# Ekvadorda milli matəm elan edildi



***Ekvador prezidenti Gilyermo Lasso prezidentliyə namizəd Fernando Villavisensionun öldürülməsi ilə bağlı üç günlük milli matəm elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə "El Universo" qəzeti məlumat yayıb.

"Fernando Villavisensionun xatirəsini yad etmək üçün üç günlük milli matəm elan edirəm", - o, bildirib.

Bununla yanaşı, polis Ekvador prezidentliyinə namizəd Fernando Villavisensionu öldürməkdə şübhəli bilinən iki nəfəri saxlayıb.

***Gülayə Mecid***

# Saakaşvilinin vəziyyəti pisləşdi



***Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin aclıq aksiyasına görə səhhəti pisləşib.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın Ombudsman Aparatının saytında məlumat yayılıb.

Qeyd olunur ki, Gürcüstanın eks-prezidentinə qanda leykositlərin azalması diaqnozu qoyulub, sümük iliyində problemlər yaranıb. Eyni zamanda, mütəxəssislər xəstənin müalicə prosesindən şikayətlərinin olmadığını qeyd ediblər və bildiriblər ki, eks-prezidentin müalicəsi davam etdiriləcək.

***Nuranə Abbasova***

# Polşa Belarusla sərhədə 10 min hərbçi yerləşdirəcək

***"Polşa Silahlı Qüvvələrin 10 min hərbçisini Belarusla sərhəddə yerləşdirməyə hazırlaşır".***

"Unikal" xəbər verir ki, bunu Polşa radiosuna müsahibəsində ölkənin milli müdafiə naziri Mariuş Blaşçak deyib.

Onun sözlərinə görə, 4000 nəfər birbaşa sərhədçilərə dəstək olacaq, 6000 isə sadəcə bölgədə yerləşdiriləcək. O, Polşa ordusunun fəal şəkildə inkişaf etdiyini və müasir texnika ilə silahlandığını da söyləyib.

# Serj Sarkisyan məhkəmədə dindirildi

***İrəvan şəhərinin ümumi yurisdiksiya məhkəməsində hakim Vahe Misakyanın sədrliyi ilə Ermənistan Respublikasının üçüncü prezidenti Serj Sarkisyanın dindirilməsi başa çatıb.***



"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı məlumat yayıb. Növbəti məhkəmə prosesi avqustun 24-nə təyin edilib.

Xatırladaq ki, Ermənistanın 3-cü prezidenti olan Serj Sarkisyan 2008-ci ildən 2018-ci ilə kimi ölkəyə rəhbərlik edib. Serj Sarkisyana qarşı Cinayət Məcəlləsinin 38-179-cu maddələrinə (mənimsəmə və israfçılıq) əsasən, ittiham irəli sürülüb. Serj Sarkisyan 2013-cü il yanvarın 25-dən fevralın 7-dək bir qrup məmurdan 489 milyon dram (1 milyon dollardan çox) pulu mənimsəmə, oğurlama və israf etməkdə ittiham olunur. Onun ölkədən çıxışına qadağa qoyulub.

***Gülayə Mecid***

# Vaşinqton Pakistanın baş naziri İmran Xanı vəzifəsindən uzaqlaşdırmaq istəyirdi

***ABŞ Dövlət Departamenti ötən ilin martında Pakistan hakimiyyətinə təzyiq edərək , onları ölkənin baş naziri İmran Xanı vəzifəsindən uzaqlaşdırmağa çağırıb .***

"Unikal" xəbər verir ki, bu barədə Pakistanın gizli hökumət sənədinə istinadən Intercept portalı məlumat yayıb .

Məlumatlara görə, 2022-ci il martın 7-də Pakistanın ABŞ-dakı o zamankı səfiri Əsəd Məcid Xan Vaşinqtonda dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisi Donald Lui ilə görüşüb. Orada amerikalılar Pakistanın Ukraynadakı münaqişə ilə bağlı "aqressiv neytral" mövqeyindən narazı olduqlarını bildiriblər . Dövlət Departamentinin rəsmiləri İmran Xanın vəzifədə qalacağı təqdirdə Pakistanı beynəlxalq səviyyədə təcrid edəcəkləri ilə hədələyib və onun vəzifəsindən kənarlaşdırılmasından sonra iki ölkə arasında münasibətlərin dərhal yaxşılaşacağını bildiriblər.

Bu Intercept nəşri ilə əlaqədar olaraq Dövlət Departamentinin sözçüsü Metyu Miller brifinqdə ABŞ-ın Pakistanın daxili işlərinə müdaxiləsi ilə



bağlı sual verib. Miller "özəl diplomatik əlaqələr" adlandırdığı şeyləri şərh etməkdən imtina edib. O vurğulayıb ki, Vaşinqtonun Pakistanın daxili işlərinə qarışması ilə bağlı bütün bəyanatlar yalandır.

# "Co Bayden Tanrının qəzəbinə düçar olmaq istəyir" - Ayodele

***"ABŞ prezidenti Co Bayden Nigerdəki vəziyyətə qarışmamalıdır".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Nigeriyanın dini liderlərindən biri İlayca Ayodele deyib, Daily Post yazır. Onun sözlərinə görə, ABŞ-nin Afrika respublikasına mümkün müdaxiləsi ciddi səhv olardı.

"Əgər ABŞ Niger Respubli-



kasına hücum edərsə, bu, şeytani və terror aktı olacaq. Bu o deməkdir ki, Co Bayden Tanrının qəzəbinə düçar olmaq istəyir. Qoy Niger öz gələcəyini təyin etsin, bu, Tanrının Birləşmiş Ştatlara göndərdiyi mesajdır. Birləşmiş Ştatlar ölkəni işğal edərsə, bu ona baha başa gələcək", - Ayodele bildirib.

***Nuranə Abbasova***

# Məhkəmə Eydelşteyni Jirinovskinin oğlu kimi tanımadı

***Moskvada Nikulinski Rayon Məhkəməsi Oleq Eydelşteyni Vladimir Jirinovskinin oğlu kimi tanımayıb.***

"Unikal" Rusiya mediasına istinadən xəbər verir ki, bu barədə məlumat məhkəmə materialında dərc olunub.

Özünü 2022-ci ilin aprelində vəfat edən siyasətçi Jirinovskinin qeyri-qanuni oğlu hesab edən Oleq Eydelşteyn məhkəməyə müraciət edərək atalıq faktının müəyyən edilməsini istəyib.

İddia edilirdi ki, Eydelşteyn Jirinovskinin mirasına sahib çıxmaq istəyir.

LDPR Eydelşteynin iddiasını şərh etməkdən imtina edib.

Fevral ayında Moskvanın Tversk məhkəməsi Eydelşteyni "hakimiyyət nümayəndəsinin qanuni tələbinə tabe olmamaqla bağlı xırda xuliqanlıq etdiyinə görə" 15 sutkalıq inzibati həbsə göndərib.

***Nuranə Abbasova***



# “Zirə” müdafiəçisi ilə yollarını ayırdı



***“Zirə” daha bir futbolçusu ilə yollarını ayırıb.***

Bu barədə Klub məlumat yayıb. Məlumata görə, müdafiəçi Slavik Alxasov paytaxt təmsilçisini tərk edib.

30 yaşlı cinah oyunçusu ilə 2024-cü ilin yayına qədər qüvvədə olan müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.

Qeyd edək ki, Slavik Alxasov 2022/2023 mövsümündə Premyer Liqada 20 oyun keçirib.

# "Neftçi"dən yeni transfer



***”Neftçi” heyətini yeni futbolçu ilə gücləndirib.***

Klubdan verilən məlumata görə, ”ağ-qaralar” nigeriyalı hücumçu Aaron Olanarenin transferini açıqlayıb.

Qeyd edək ki, 30 yaşlı forvard 2016-2018-ci illərdə Rusiya MOİK-inin şərəfini qoruyub.

Təcrübəli oyunçu buna qədər ölkəsinin “Şutinq Starz”, Norveçin “Valerenqa” və “Sarpsborq”, Çinin “Quançjou”, “Siçuan” və “Çançun Yatay”, Rusiyanın “Amkar” və İsrailin “Beytar” (Yerusəlim) klublarının da formasını geyinib. Son 2 mövsümü Türkiyə “Ərzurumspor”unda keçirən hücumçu I Liqada 23 matçda 4 dəfə fərqlənib.

Olanare Nigeriya millisində 7 oyunda 2 qol vurub.

# Leyli finala vəsiqə qazandı



***Gənc atıcımız Leyli Əliyeva Minsk şəhərində keçirilən II MDB Oyunlarında yenidən finala vəsiqə qazanıb.***

Atıcımız pnevmatik tapançadan 25 m məsafəyə atəş növündə 567 bal toplayaraq ən yaxşılar arasında olmağı bacarıb.

Qeyd edək ki, o, 2 gün əvvəl pnevmatik tapançadan 10 m məsafəyə atəş üzrə rəqiblərinə qalib gələrək qızıl medala sahiblənib.



# "Bavariya" Keynin transferi ilə bağlı "Tottenhem"lə razılığa gəldi

***“Tottenhem”in hücumçusu Harri Keyn “Bavariya”ya keçməyə yaxındır.***

Qol.az jurnalist Florian Plettenberqin sosial şəbəkə hesabına istinadən xəbər verir ki, Münhen təmsilçisi 30 yaşlı oyunçunun transferi ilə bağlı razılığa gəlib. Keçidin dəyəri 100 milyon avro və bonuslar olaraq qiymətləndirilir.

2022/23 mövsümündə Keyn London təmsilçisinin heyətində 49 oyuna çıxıb, 32 qol vurub və 5 qolun ötürməsini verib. İngiltərəli hücumçunun klubla müqaviləsi gələn ilin yayında başa çatır.

# Misli Premyer Liqasında 2-ci turun hakimləri açıqlandı




***Misli Premyer Liqasında 2-ci turunun qarşılaşmalarına hakim təyinatları açıqlanıb.***

“Unikal” AFFA-nın saytına istinadən xəbər verir ki, oyunları adları aşağıda qeyd olunan hakimlər idarə edəcək.

12 avqust (şənbə)

18:30. “Araz-Naxçıvan” - “Qəbələ”

Hakimlər: Fərid Hacıyev, Akif Əmirəli, Vüsal Məmmədov, Əli Əliyev

“Dalğa Arena”

21:00. “Zirə” - “Kəpəz”

Hakimlər: Kamal Umudlu, Rəhman İmami, Asiman Əzizli, Vüqar Həsənli

Zirə İdman Kompleksinin stadionu

13 avqust (bazar)

18:30. “Qarabağ” - “Turan Tovuz”

Hakimlər: Rauf Allahverdiyev, Rahil Ramazanov, Teymur Teymurov, İslam Məmmədov

“Azersun Arena”

21:00. “Sumqayıt” - “Sabah”

Hakimlər: Rəşad Əhmədov, Cəmil Quliyev, Eyyub İbrahimov, Rövşən Rəcəbov

“Kapital Bank Arena”

14 avqust (bazar ertəsi)

20:00. “Neftçi” - “Səbail”

Hakimlər: Rauf Cabarov, Cavanşir Yusifov, Zöhrab Abbasov, Sabuhi Bayramov

“Neftçi Arena”

# U-17 millimizin oyunlarının məkanı və saatı bilindi

***Bakıda təlim-məşq toplanışına başlayan 17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası hazırlıq çərçivəsində Monteneqronun müvafiq yaş qrupundan ibarət komandası ilə iki yoldaşlıq oyunu keçirəcək.***

“Unikal” AFFA-nın saytına istinadən xəbər verir ki, avqustun 15-də və 18-də təşkil olunacaq oyunların məkanı və başlama vaxtı müəyyənləşib.

Hər iki qarşılaşma “Dalğa Arena”da olacaq və saat 18:30-da başlayacaq.

# "Mançester Yunayted" futbolçular üçün istirahət otağı yaradacaq



***“Mançester Yunayted” oyunçular üçün istirahət otağı yaradacaq.***

Qol.az ”The Guardian”a istinadən xəbər verir ki, ”Old Trafford”da çoxdan gözlənilən istirahət otağı Premyer Liqanın ilk turu öncəsi istifadəyə veriləcək. Bundan əvvəl klubun sabiq baş məşqçiləri Lui Van Qal və Joze Mourinyo onun üçün müraciət etsə də, rədd cavabı almışdılar.

Ancaq baş məşqçi Erik Ten Haq klub rəhbərliyini oyunlara hazırlıq zamanı istirahət otağının məcburi olduğuna inandıra bilib. Rəhbərlik bunun üçün vəsait ayırmağa qərar verib.

Erik ten Haq hesab edir ki, komandanı hər dəfə ev matçlarından əvvəl şəhərin mərkəzindəki oteldə toplamaq böyük səhvdir. Bu, əlavə vaxt aparır, komanda ruhuna pis təsir edir və futbolçuların qidalanmasına nəzarəti çətinləşdirir.

Qeyd edək ki, ”Mançester Yunayted” İngiltərə Premyer Liqasının 1-ci turunda ”Vulverhempton”u qəbul edəcək.

# Azərbaycan millisinin üzvü "Aktobe"də

***Futzal üzrə Azərbaycan millisinin üzvü Hadi Ahmadi komandasını dəyişib.***

“Unikal” Azərbaycan Futzal Federasiyasının saytına istinadən xəbər verir ki, ötən mövsümü ”Bayterek”də keçirən futzalçı bu dəfə Qazaxıstan çempionatının digər iştirakçısı - ”Aktobe” ilə anlaşıb.

O, mövsümün sonuna qədər bu komandanın formasını geyinəcək.

# Bonuççi "Yuventus" azarkeşləri ilə vidalaşdı



***”Yuventus”un müdafiəçisi Leonardo Bonuççi klubun azarkeşləri ilə vidalaşıb.***

Qol.az xəbər verir ki, 36 yaşlı futbolçu özünün sosial şəbəkə hesablarında yazıb: “Burada çox şey öyrəndim, mübarizə apardım və xəyal qurdum. Mümkün olduğunu düşündüyümdən daha çoxuna nail oldum.

Belə bir vəziyyət öz evim kimi qəbul edəcəyim və daim sevəcəyim klubu tərk etməyimi şərtləndirir. İlk gündən bu günə kimi tanış olduğum bütün ”Yuventus”lulara təşəkkür edirəm”.

Qeyd edək ki, Turin təmsilçisi Bonuççini satışa çıxıb.

O, 2018-ci ildən ”Yuventus”da oynayır. İtaliyalı futbolçu klubla 502 oyuna çıxıb, 37 qol vurub və 10 qolun ötürməsini verib.